www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19-21 avqust 2023-cü il Şənbə № 145 (8281) Qiymәti 60 qəpik

**Xəbər**

## Taksilərlə bağlı yeni qaydalar rəsmiləşdi

yazısı səh.6-da

**Gündəm**

### Avropalı "revizor"lar sərhəddə yox, erməni səngərlərində... - ifşa



Mülki missiya üzvünün erməni səngərində durbinlə müşahidə apardığı video yayılıb

yazısı səh.8-də

### Azərbaycanlılar Almaniyaya sığınır - son aylarda 1000-dən çox...

yazısı səh.3-də

### Beş dövlətin əsiri - BMT-də dəyişikliklər zərurəti

yazısı səh.4-də

### Xankəndidəki qondarma spiker otağına onun şəklini asdı

yazısı səh.5-də

### Korrupsiya həbsləri məmurları durdurmur - 88-1 maddəsi geri qayıtmalı...

yazısı səh.6-da

### İki dəhşətli cinayət - oğul anasını, ər arvadını öldürdü

yazısı səh.3-də

### Yeni müharibə həvəsində olanlara sual: "Nəynən, Aşot..?"

yazısı səh.9-da

### Ermənistan indi də Ukraynanı minalayır

yazısı səh.10-da

### Gələn ay böyük hərrac var: yataqlara kim "maya" qoyacaq?

yazısı səh.12-də

### "Avroviziya 2024"ə razılıq verdik - müsabiqədən çəkilək, yoxsa...

yazısı səh.14-də

# ƏRDOĞAN-PUTİN GÖRÜŞÜNÜN BAKIDA KEÇİRİLMƏSİ İDDİASI

Azərbaycan nə Türkiyənin təmsil olunduğu NATO-nun, nə də Rusiyanın əsas söz sahibi olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür; Bu, indiki həssas dönəmdə Bakıda görüş üçün daha bir səbəb kimi görünə bilərmi?



yazısı səh.7-də

## "Lavrov planı": Xankəndi erməniləri vəzifə tuta bilməyəcək!

Rusiyanın 14 maddəlik sənədində Qarabağ ermənilərinə bəzi imtiyazlar tanınır, Azərbaycanla Ermənistan arasında ayrıca saziş təklif edilir; ekspertlərin fikrincə, son üç bənd...

yazısı səh.5-də



*Akif İslamzadə:*

### "Sənət adamı xalqın dərdini deməlidir" deyənlərin çoxu avamdır"

yazısı səh.15-də



### İranda tutulan azərbaycanlı tələbənin evinə gizli kamera quraşdırılıb

yazısı səh.7-də



### Quru sərhədlərin nə qədər bağlı qalacağı bilinmir - deputatın şərhi

yazısı səh.13-də



## Prezident yeni səfirləri qəbul etdi

**Avqustun 18-i Prezident İlham Əliyev Kolumbiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayalanın etimadnaməsini qəbul edib.**

Bundan başqa, dövlət başçısı Tacikistanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İlxom Abduraxmonun, Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sin Xon Çxolun etimadnaməsini də qəbul edib.

## Generalın müavini də işdən çıxarıldı

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin rəis müavini Əkbər Novruzov vəzifəsindən azad edilib.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə fövqəladə hallar naziri Kəmaləddin Heydərov əmr imzalayıb.

Nazirin digər əmri ilə onun yerinə polkovnik-leytenant Mircavad Seyidov təyin edilib.

Qeyd edək ki, bir neçə gün əvvəl Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi Hikmət Abbasov da vəzifəsindən azad edilib.

## "Göyçə Zəngəzur Respublikası" fəaliyyətini dayandırdı




**"Göyçə Zəngəzur Respublikası" fəaliyyətini dayandırdığını elan edib.**

Bu barədə "Göyçə Zəngəzur Respublikası" və "Qərbi Azərbaycana Qayıdış" İctimai Birliyinin birgə bəyanatında bildirilib.

Rizvan Talıbov və Tünzalə Çələbiyevanın imzaladığı bəyanatda deyilir: "Biz hazırda bir təşkilat olaraq "Göyçə Zəngəzur Respublikası"nın fəaliyyətini dayandırdığını rəsmən elan edir və bütün soydaşlarımızı Prezidentimizin vahid siyasi xətti ətrafında və bu siyasi xəttə öz töhfəsini vermək üçün qətiyyətlə fəaliyyət göstərən, Ermənistandan qovulmuş azərbaycanlıların maraqlarını legitim və mötəbər şəkildə müdafiə edən, Qərbi azərbaycanlıların hər birini əhatə edərək yeganə ümumi təşkilatı olan Qərbi Azərbaycan İcmasında səylərini bundan sonra da birləşdirməyə çağırırıq. Yolumuz doğma torpağımız Qərbi Azərbaycanadır. Bu yolda hər birimizə uğurlar arzulayırıq".

## Füzuliyə ilk köç

**Füzuli şəhərinə ilk köç başlayıb.**

İlk olaraq 23 ailənin (90 nəfər) köçü olub. Lökbatanda məcburi köçkünlər üçün salınmış "Qobupark-3"dən 23 ailə yola salınıb.

Qeyd edək ki, avqustun 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib. Püşkatmada 144 ailə ( 509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

## Ölkədə neçə nəfər qocalıq müavinəti alır?

**Dövlət Sosial Müdafiə Fondu 2023-cü il iyulun 1-nə yaşa görə müavinət alanların sayını 137 min 581 nəfər göstərib. Müavinətin aylıq məbləği 220 manatdır.**

Azərbaycanda kişilər 65, qadınlar 63 yaş yarımda pensiyaya çıxır. Pensiyaya çıxmaq üçün ya 25 il sığorta stajı, ya da 40320 manat pensiya kapitalı tələb olunur. 2006-cı il yanvarın 1-dən 2018-ci il iyulun 1-dək hər hansı məbləğdə pensiya kapitalı toplamış şəxsin sosial sığorta stajı avtomatik 25 il hesablanır, əks halda pensiya yaşı çatan şəxsə yaşa görə müavinət verilir.

2023-cü il iyulun 1-nə pensiyaçıların sayı 1 milyon 96,6 min nəfər olub.

Minimum pensiya 280 manatdır.

# "Qarabağ"ın yeni qapıçısı Bakıya gəldi - Şahruddin kabusu bitir?



**"Qarabağ" "Bayer"dən (Almaniya) ayrılan qapıçı Andrey Lunyevlə razılaşıb.**

Qol.az-ın əldə etdiyi məlumata görə, 32 yaşlı qolkiper Bakıya gəlib və bu gün tibbi müayinədən keçəcək. Daha sonra rusiyalı qolkiperlə 1 illik müqavilə imzalanacağı gözlənilir. Andrey "Qarabağ"a azad agent kimi keçib.

Qeyd edək ki, Lunyov karyerası ərzində "Torpedo", "İstra", "Kaluqa", "Saturn Ramenskoye", "Ufa", "Zenit" komandalarında da oynayıb. O, son klubu "Bayer"də 2021-ci ildən çıxış edirdi və may ayında komandadan ayrılıb.

Andrey Rusiyanın əsas millisində 7 oyun keçirib.

Qeyd edək ki, Avropa Liqasının III təsnifat mərhələsinin cavab matçında meydan sahiblərinin qol vurmasında Şahruddin Məhəmmədəliyevin ciddi səhvi olub.

Şahruddin Məhəmmədəliyev Çempionlar Liqasının ikinci təsnifat mərhələsində "Rakuv"la Polşada keçirilən matçda ciddi səhvlərlə yadda qalmışdı.



## İki ayda 47 nəfər suda boğulub

**"Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına iyunun 3-dən avqustun 13-dək suda boğulma ilə bağlı ümumi 47 müraciət daxil olub".**

Bu barədə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) məlumat verilib.

Bildirilib ki, onlardan 7 nəfərə yerində tibbi yardım göstərilib:"19 nəfəri hospitalizasiya olunub. 19 nəfər şəxs tibb müəssisəsinə çatdırılmadan vəfat edib". Qeyd edilib ki, hər gün dövlət nəzarəti olan 19 çimərlikdə təcili yardım briqadaları növbədə dayanır:

"Suda boğulan şəxslərə ilk tibbi yardım tədbirlərini həyata keçirmək üçün hər bir təchizat və təminat mövcuddur.

## Müsavat və REAL bir daha qeydiyyat yolunda




**Müsavat Partiyası üzvlərinin bir qisminin siyahısı yenidən tərtib olunaraq dövlət qeydiyyatına məsul Ədliyyə Nazirliyinə təqdim olunub. Xəbəri avqustun 17-də başqan Arif Hacılı yayıb.**

Novator.az bildirir ki, Müsavat Partiyası iyulun 8-də üzvlərinin bir qisminin siyahısını Ədliyyə Nazirliyinə təqdim etmiş, ancaq qeydiyyat müraciətinə mənfi cavab almışdı. Nazirlikdən partiyaya göndərilən məktubda sənədlərdə qüsurlar olduğu vurğulanmış, o cümlədən qeyd edilmişdi ki, reyestrdə adı göstərilmiş 5212 nəfərin 2766-sı barədə bilgilər dəqiq deyil, 250 nəfər telefon zənginə cavabında partiya üzvü olmadığını bildirib, 11 nəfər barədə məlumatlar təkrarlanıb.

Respublikaçı Alternativ (REAL) Partiyası üzvlərinin reyestrini yeniləyərək dövlət qeydiyyatına məsul Ədliyyə Nazirliyinə təqdim edib. Qurumun sədri İlqar Məmmədovun avqustun 17-də yaydığı məlumata görə, siyahıda 5401 nəfərin adı yer alır.

İyulun 17-də REAL-ın Ədliyyə Nazirliyindən mənfi cavab aldığı məlum olmuşdu. Rəsmi cavaba görə, siyahıdakı 986 nəfər partiyanın üzvü deyil, 1058 nəfərin telefon nömrəsi yerinə partiyanın ofisinin telefon nömrəsi göstərilib, 2527 nəfərin adı, soyadı və doğum tarixləri dövlət reyestrində təsdiqini tapmayıb, 68 nəfərin adı təkrar göstərilib.

## Azərbaycan Ordusunun əsgəri intihar edib

**Azərbaycan Ordusunun hərbçisi özünü güllələyərək öldürüb.**

Bu barədə Hərbi Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri, hərbi prokurorun böyük köməkçisi, baş ədliyyə müşaviri Firad Əliyev məlumat verib.

Onun sözlərinə görə, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, kiçik çavuş Asim Hamail oğlu Abbasovun odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Ağdam Hərbi Prokurorluğuna məlumat daxil olub.

"Daxil olmuş məlumat əsasında Ağdam Hərbi Prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinin əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, eləcə də izahatlar alınıb və digər hərəkətlər icra edilib.

Hərbçimizin özünü öldürməsinin ilkin səbəbi məlum olub. Hadisə ailə-məişət zəminində baş verib. Hadisənin hərbi xidmətlə əlaqəli olmadığı bildirilir.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq", - F.Əliyev bildirib.

## AQTİ-nin əməkdaşı 28 yaşında vəfat etdi



**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) Milli Referens Laboratoriyasının əməkdaşı Nuranə Hamlet qızı Mollayeva uzun sürən xəstəlikdən vəfat edib.**

Medicina.az ttps://medicina.az/xəbər verir ki, bu barədə AQTİ-dən bildirilib.

Qeyd edək ki, N.Mollayeva 1995-ci il martın 3-də anadan olub. O, Bakı Dövlət Universitetini bitirərək bioloq ixtisasına yiyələnib. Türkiyənin Anadolu Universitetində biotexnologiya ixtisası üzrə magistr təhsili alıb. 2019-cu ildən AQTİ-də "Analitik Ekspertiza Mərkəzi" departamentinin Milli Referens Laboratoriyasının Bioloji müayinələr bölməsində böyük mikrobioloq vəzifəsində çalışmağa başlayıb.

N.Mollayeva vəzifə təlimatlarında nəzərdə tutulan tapşırıqları vaxtında və peşəkarlıqla yerinə yetirib, nümunəvi davranışları ilə seçilib, kollektivin rəğbətini qazanıb.

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023




# Azərbaycanlılar Almaniyaya sığınır - son aylarda 1000-dən çox...

## Ukraynada müvəqqəti yaşamaq hüququ olan, əksəriyyəti isə Azərbaycan vətəndaşı olanlar vətənə deyil, qürbətə üz tuturlar - onlar isə burada...

**Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar Almaniyada sığınacaq axtaran Azərbaycan vətəndaşlarının sayında artım var, Almaniyanın Miqrasiya və Qaçqınlar üzrə Federal İdarəsinin (BAMF) mətbuat xidməti xəbər verir.**

Qeyd olunur ki, 2023-cü ilin ilk 7 ayı ərzində ümumilikdə 1016 Azərbaycan vətəndaşı federal agentliyə sığınacaq üçün müraciət edib. Onlardan 852-si ilk dəfə, 164-ü yenidən müraciət edib. Müraciət edənlərin əksəriyyəti Ukraynada yaşamaq hüququ olan Azərbaycan vətəndaşları olub.

Cenevrə Konvensiyasına əsasən yalnız 28 ərizəçiyə qaçqın statusu verilib, 387 vətəndaşa isə sığınacaq verilməyib, onların vətəndaşı olduqları ölkəyə könüllü qayıtmaları barədə qərar qəbul edilib.

Bu arada, Hamburqda qaçqın düşərgəsində otaq yoldaşlarını dəmir dəyənəklərlə döyən iki azərbaycanlı - Etibar R. (51 yaş) və Rüfət H. (43 yaş) barəsində məhkəmə prosesi başlayıb. “Bild”in məlumatına görə, cinayət 6 ay əvvəl törədilib. Məhkəmə onu qəsdən adam öldürmə və sağlamlığa ağır xəsarət yetirməkdə ittiham edib.

Məlumata görə, fevral ayında qaçqın düşərgəsində əslən Ukraynadan olan kişi ilə (61 yaşlı) mübahisə edib və bu, davaya səbəb olub. Həmyerlilərimiz ukraynalıya hücum edərək onu döyməkdə ittiham olunublar.

Səs-küyü eşidən qurbanın dostu (66 yaşlı) müdaxilə etməyə çalışıb. O, üzündən ağır zərbələr alıb, başından xəsarətlər alıb, əlaltı sümüyünün sınığı olsa da, sağ qalıb. Lakin dostu xilas etmək mümkün olmayıb, o, xəstəxanada dünyasını dəyişib.

Cinayət baş verən zaman azərbaycanlı qaçqınlar sərxoş vəziyyətdə olublar. Hamburqun münsiflər heyəti sentyabrın 4-də hökm çıxaracaq.

Görünən budur ki, Ukraynada müvəqqəti yaşamaq hüququ olan, əksəriyyəti isə Azərbaycan vətəndaşı olanlar vətənə deyil, qürbətə - konkret halda Almaniyaya üz tuturlar. Onlar isə burada gözləyən yoxdur. Nəzərə alsaq ki, son aylar Almaniyanın iqtisadiyyatında ciddi geriləmə var, o halda müraciət edən azərbaycanlı qaçqınların əksəriyyətinə yox cavabı verilir. Bu yuxarıda göstərilən statistikadan da məlum olur. Bəs, Almaniyanı azərbaycanlılar üçün bu qədər cəlbedici edən nədir?

Beynəlxalq hüquq üzrə mütəxəssis, iqtisadçı Vüsalə Əhmədova mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, istər beynəlxalq miqyaslı müharibələr, istərsə də vətəndaş müharibələri olsun, bu hər zaman kütləvi miqrasiyaya səbəb olub: “Bir qayda olaraq, qaçqınların kütləvi şəkildə meydana çıxması daha çox beynəlxalq münaqişələr, işğal, soyqırımı kimi amillər nəticəsində baş verir. Məlumdur ki, münaqişə dövründə mülki əhali hərbi əməliyyatların baş verdiyi və ya işğal olunmuş əraziləri tərk edərək müvəqqəti və ya daimi yaşayış yeri axtarmağa məcbur olur. Təəssüf ki, silahlı münaqişələr zamanı qaçqın və köçkünlərin müdafiəsi məsələsinə humanitar hüquqda tam olaraq aydınlıq gətirilməyib.

Ümumilikdə, 28 iyul 1951-ci ildə imzalanmış “Qaçqınların statusu haqqında Konvensiya” və 1967-ci il tarixli “Qaçqınların Statusuna dair Protokol”u birgə beynəlxalq qaçqın hüququnun əsasını təşkil edir. 1951-ci il tarixli konvensiyaya müvafiq olaraq “qaçqın” statusu, öz ölkələrindəki ağır şəraitdən və ya təqib edilmək kimi risklərdən qorxaraq ölkəsini tərk edən və başqa dövlətə sığınmaq istəyən şəxslərə verilir. Müharibə, daxili qarışıqlıq, səfalət, yoxsulluq, təhlükə, qorxu, təbii fəlakətlər qaçış səbəbi kimi göstərilə bilər. Lakin konvensiyanın müharibədən qaçan şəxsləri əhatə edib-etməməsi sual doğurur. Çünki konvensiyada konkret olaraq “hərbi münaqişə” ifadəsi yoxdur.

Əslində, konvensiyanın 1-ci maddəsində göstərilən “irqi, dini, milliyyəti və ya müəyyən sosial qrupa mənsubiyyətinə görə təqib qorxusu” ifadəsi yer alır, hansı ki, bu qorxunun silahlı münaqişələr, işğal və ya soyqırımı nəticəsində də yarana biləcəyi formasında şərh oluna bilər. Bu baxımdan konvensiyanın silahlı münaqişədən qaçanlara şamil edilməsi mümkündür. Burada əsas olan, ərizəçinin subyektiv qorxusunun əsaslı olub-olmadığının müəyyən edilməsidir. Bunun üçün isə, şəxsin mənşə ölkəsindəki vəziyyətinin obyektiv qiymətləndirilməsi aparılır. Rusiya-Ukrayna müharibəsindən qaçaraq Almaniyaya sığınmaq istəyən Azərbaycanlıların əksəriyyəti Ukrayna vətəndaşı olmadıqları üçün onların tələbi təbii olaraq qəbul edilmir".

Politoloq Yeganə Hacıyeva isə “Yeni Müsavat”a dedi ki, azərbaycanlılar hər zaman başqa ölkələrdə məskunlaşmağa meylli olublar, tək Almaniyada deyil: “Burada ilk olaraq psixoloji amil rol oynayır. Azərbaycan düşüncəsi hər zaman səyahət etmək istəyən düşüncədir. Misal üçün, kənd yerində yaşayanlar heç olmasa ayda bir dəfə şəhərə gəlirlər, nə qədər pul xərcləyəcəklərini düşünmədən. Bu gündəlik həyat tərzini dəyişmək istəyindən əmələ gəlir. Bu tarixin bütün mərhələsində özünü göstərib. İndi araşdırıblar, aydın olub ki, Avropanın kitabxanalarında saxlanılan yazılarda, Avropanın səs-li-küylü məşhur insanları məhz bizim yaşadığımız coğrafiyadan gediblər. Həmin məşhur insanların vəfat etdikdən sonra DNT analizi ediblər, məlum olub ki, onlar Cənubi Qafqazın bizim yaşadığımız ərazisindən gediblər. Getdikləri yerdə uğurları da olub. Bəzən ermənilər öz adlarına çıxırlar. Çox məşhur rəssamlar, məşhur riyaziyyatçılar məhz Azərbaycandan getmiş, həmin dövrün insanlarıdır. Onların genlərinin DNT analizi bunu göstərib. Bu yeni tarix, ən yeni tarixdə də belədir. 19-cu əsrdə Avropaya getmiş azərbaycanlıları xatırlamaq lazımdır. O zaman da kifayət qədər uğur qazanıblar. Düzdür, bizdə məşhur azərbaycanlıları araşdırmırlar. Bu gün reallıq odur ki, bu gün Türkiyənin ilk millət vəkili azərbaycanlıdır. Fransada tanınmış hüquqşünaslar var ki, onlar da azərbaycanlılardır. Sovetin dövründə də elə ailə yox idi ki, Rusiyaya getməsin. Bizdə maddi cəhətdən yaxşı yaşamaq üçün xarici ölkəyə getmək marağı olub. 2000-ci illərdən sonra da Avropaya getmək ənənəyə çevrildi. İndi də bu davam edir. Azərbaycanlılar bəzən məsuliyyətdən qaçmaq üçün xarici ölkələr üz tuturlar. Bəzən çox pis şəraitdə yaşasalar belə, özlərini xoşbəxt hiss edirlər. Necə deyərlər, uzaq təpələrin otları yaşıl görünür”.

❑ Afaq MİRAYİQ,
“Yeni Müsavat”



# İki dəhşətli cinayət - oğul anasını, ər arvadını öldürdü

**Avqustun 18-də səhər saatlarında Ucar Rayon Polis Şöbəsinə rayonun Qaradağlı kənd sakini, 1981-ci il təvəllüdlü Ş.Qurbanovanın boğularaq öldürülməsi barədə polisə məlumat daxil olub.**



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin regional qrupundan verilən məlumata görə, hadisə yerinə polis və prokurorluq əməkdaşları cəlb olunub. Polis əməkdaşları tərəfindən cinayət əməlini törətməkdə şübhəli bilinən qadının oğlu, 2000-ci il təvəllüdlü Qurbanov Faiq Bakı şəhərində saxlanılıb.

“Unikal” xəbər verir ki, hadisə qısqanclıq zəminində baş verib. Ş.Qurbanovanı öldürməkdə şübhəli bilinən oğlu 2000-ci il təvəllüdlü Qurbanov Faiq atası ilə birgə Rusiyada yaşayırmış. O, bir müddət öncə doğulduğu Qaradağlı kəndinə gəlibmiş. Faiq bu gün səhər saatlarında anasının telefonuna baxdıqdan sonra məlum hadisəni törədib.

Ucar rayon prokurorluğunun yaydığı məlumata görə, fakta görə Ucar rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

İki gün əvvəl Salyanda öldürülən qadınla bağlı da maraqlı məqamlar üzə çıxıb. Məlum olub ki, hadisədən bir neçə saat əvvəl başına gələnlərlə bağlı video çəkibmiş. Yada salaq ki, videomüraciət qeydə alınan gün Günel bıçaqla qətlə yetirilib, hadisə ilə əlaqədar əri Qaraş İbrahimov şübhəli şəxs qismində saxlanılıb.

O videoda ailə durumunun dözülməz olduğunu, həyat yoldaşının onu döydüyünü bildirib:

“Neçə dəfə dedim ki, belə etmə... Hər kəs kimi gözəl ailəmiz olsun. Gördüm ki, başa düşmür, ayrılmaq istədim. Ayrılmadı. Mən də canıma qəsd etdim. Mənə hədə-qorxu gəlirdi. İndi də zəng edirlər ki, əgər şikayəti geri götürməsən, səni şərləyib uşaqları əlindən alacağıq”.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə ibtidai istintaq gedir.

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023

**Ermənistanın saxta humanitar şousunun müzakirəyə çıxarılması fiasko olsa da, bu fakt bir daha onu göstərdi ki, BMT Təhlükəsizlik Şurası artıq bəşəri dəyərləri özündə ehtiva edən platforma deyil. BMT Təhlükəsizlik Şurasının iclasının nəticələri Azərbaycan üçün qaneedici olsa da, prosesin özü BMT-nin öz məqsəd və prinsiplərinə zidd formada siyasi manipulyasiyaların alətinə çevrildiyini də göstərdi.**

# Beş dövlətin əsiri - BMT-də dəyişikliklər zərurəti

## Təhlükəsizlik Şurasının iclasının nəticələri Azərbaycan üçün qaneedici olsa da, prosesin özü BMT-nin siyasi manipulyasiyaların alətinə çevrildiyini göstərdi



Məlumatlara görə, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Linda Tomas-Qrinfild bu payız dünya liderlərinin Nyu-Yorkda keçiriləcək illik toplantısı ərəfəsində Təhlükəsizlik Şurasının mümkün genişləndirilməsi ilə bağlı 193 ölkənin diplomatları ilə məsləhətləşmələr aparır. ABŞ administrasiyası BMT Təhlükəsizlik Şurasına veto hüququ olmayan əlavə 6 daimi üzvün daxil edilməsini təklif edir.

Məlumdur ki, BMT TŞ-nin 5 daimi və veto hüququna malik üzvü arasında (ABŞ, Rusiya, Çin, Fransa və Britaniya) milyard yarımlıq islam dünyasından bir ölkə də yoxdur. O da bəllidir ki, Azərbaycan Prezidenti İlham Əliyev azı iki dəfə analoji təşəbbüslə çıxış edib. Birinci dəfə bu ilin yanvarında yerli telekanallara müsahibəsində deyib ki, BMT Təhlükəsizlik Şurasının formatı artıq köhnəlib: “Ona görə, əlbəttə ki, Təhlükəsizlik Şurasında yeni üzvlər olmalıdır. Mütləq bir daimi yer müsəlman ölkəsi üçün ayrılmalıdır və bunu İslam Əməkdaşlıq Təşkilatı özü müəyyən etməlidir, o seçim etməlidir, iki illik, ya üç illik rotasiya prinsipi əsasında. Bir yer də Qoşulmama Hərəkatına verilməlidir və orada sədrlik edən ölkə o daimi yerdə olmalıdır, əgər veto hüququ qalacaqsa, onda o yeni iki üzvə də veto hüququ verilməlidir”.

Siyasi ekspertlər də hesab edir ki, yeni üzvlərə veto haqqının verilməyəcəyi halda ənənəvi 5 daimi üzvün üstün imkanlarının saxlanması yenə də istənilən nəticəni verməyə bilər. O səbəbə təzə üzvlərin də veto haqqının olması beynəlxalq məsələlərdə daha ədalətli mövqe ortaya qoyulması və BTM TŞ-nin effektivliyinin artırılması ilə nəticələnə bilər.

Məsələ artıq o dərəcədə günün tələbinə çevrilib ki, hətta BMT-nin baş katibi Antoniu Quterreş də BMT TŞ-də islahatların aparılmasının vaxtının çatdığını dilə gətirib. Bu ilin mayında Xirosimada keçirilən G7 sammitindən sonra mətbuat konfransında Quterreş bəyan etmişdi ki, BMT Təhlükəsizlik Şurasında və Bretton-Vuds institutlarında islahatların aparılmasının vaxtı çatıb və onları “bugünkü dünyanın reallıqlarına” uyğunlaşdırmaq lazımdır. “Qlobal maliyyə arxitekturası köhnəlib, işləmir və ədalətsizdir”, - deyə A.Quterreş bildirmişdi.

Beləliklə, Azərbaycan Prezidentinin qaldırdığı məsələ BMT baş katibi səviyyəsində faktiki olaraq dəstəklənib. Hər keçən gün BMT TŞ-də islahatların vacibliyini ortaya çıxarır.

Siyasi ekspert Yeganə Hacıyeva “Yeni Müsavat”a şərhində bildirdi ki, İkinci Dünya müharibəsindən sonra yaradılan Təhlükəsizlik Şurasının daimi üzvlərinin əsas missiyası BMT-ni öz maraqlarını yeritmək üçün alət kimi istifadə edərək Afrika, Yaxın Şərq kimi regionlarda resurslar ələ keçirmək oldu: “BMT TŞ-də ən çox qazanan ölkə həmişə Fransa olub. Son illərdə, xüsusən COVİD-19 pandemiyası zamanı bretton woods sisteminin, yəni BMT TŞ-nin dünya üçün müsbət nəsə vermədiyi, yetərsiz olduğu bir daha ortaya çıxdı. 2022-ci ildə Rusiyanın Ukraynaya hərbi hücumu isə qlobal səviyyədə problemləri, BMT TŞ-nin tamamilə iflic olduğunu ortaya çıxardı: ”BMT TŞ-nin beş daimi üzvündən biri BMT-nin üzvü olan dövlətin ərazisinə hərbi hücum etdi və ərazisinin bir hissəsini işğal elədi. TŞ-nin digər üzvü bu məsələni müzakirəyə çıxardı. Amma 5 daimi üzvdən biri olan aqressor dövlət buna veto qoydu. Beləliklə, Təhlükəsizlik Şurasının iflic, işlək olmadığı bir daha isbat oldu. Bu sistemin özünü doğrultmadığı, islahatlara ehtiyac olduğu şəksizdir. İdarə edənlərlə idarə olunanlar arasında uçurum, qeyri-uzlaşma bu sistemi iflic vəziyyətinə gətirib. Artıq dünyada onlara etimad qalmayıb. Dünyanın bir nömrəli beynəlxalq təşkilatının Təhlükəsizlik Şurası “xristian klubu” kimi tanınır. İlk növbədə daimi üzvlər sırasında iki milyarddan çox müsəlmanı təmsil edən dövlət olmalıdır. İslam dünyasının maraqları bretton woods sistemində qorunmadı və qorunmur. Ona görə də İslam Əməkdaşlıq Təşkilatının rotasiya qaydasında müəyyən edəcəyi bir müsəlman dövləti TŞ-nin daimi üzv olmalıdır. Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayı artırılacaqsa, veto hüququ onların hər birinə verilməlidir. İslahatlar bir və ya bir neçə ölkəyə BMT Təhlükəsizlik Şurasında mövqelərini daha da möhkəmləndirməyə xidmət edəcək islahatlar olmamalıdır".

Ekspert qeyd etdi ki, Təhlükəsizlik Şurasının 5 daimi üzvü olan ölkələr özlərinin veto hüququndan istifadə edərək qərar və qətnamələrin qəbul edilməsini bloklayırlar. Bu nöqteyi-nəzərdən BMT dünyanın bütün coğrafi mövqelərini əhatə edən qlobal xarakterli məsələləri müzakirə edərkən həmişə bu 5 dövlətin geosiyasi maraqlarının toqquşmasından irəli gələn qərarsızlıqlara tuş gəlir və bu səbəbdən də səmərəli fəaliyyət göstərə bilmir: “Azərbaycan Prezidenti İlham Əliyev də BMT-nin yenidən qurulması, eyni zamanda qurumun həm Təhlükəsizlik Şurasının, həm də Baş Məclisinin fəaliyyətini artırmaq üçün təkliflər verib. Məlum olduğu kimi, BMT Təhlükəsizlik Şurasının 5 daimi, 10 da keçici, 2 il müddətinə seçilmiş üzv ölkəsi var. Keçici üzvlərin heç bir veto qoymaq səlahiyyəti yoxdur. Onların tərkibi hər iki ildən bir təzələnir. Amma 5 daimi üzv orada qəbul edilən qərarların hamısını öz nəzarətində saxlayır. Ona görə də bu gün bir çox dövlətlər-islam ölkələri, Qoşulmama Hərəkatı, digər qurumlar tərəfindən belə səslər eşidilməkdədir ki, Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməli, oraya yeni üzvlər qəbul olunmalıdır. Almaniya kimi böyük dövlət Təhlükəsizlik Şurasının daimi üzvlüyünə iddia edir. Bunu demək mümkündürsə, BMT-nin ilk növbədə, Təhlükəsizlik Şurasının üzvlərinin tərkibinin dəyişdirilməsini, onların sayının 15-ə qaldırılmasını təklif edən dövlətlər çoxdur. Azərbaycan da, İslam Əməkdaşlıq Təşkilatı da, Qoşulmama Hərəkatı da bu mövqedədir. BMT-nin işini daha səmərəli qurmaq üçün Baş Məclisində dəyişikliklər aparması təklifləri var. Bir sözlə, BMT-nin dünyada sülh və əmin-amanlığın başlıca qoruyucusu kimi səmərəli fəaliyyəti üçün bu təşkilatda ciddi struktur islahatlarına ehtiyacın olduğunu əksər dövlətlər deyir. BMT-də islahatlar ilk növbədə elə BMT-nin özünü xilas etmək üçün aparılmalıdır”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

## Ermənistanın arzusu Çin çıxır?

**Çinin Ermənistandakı hərbi attaşesi An Tyan avqustun 17-də İrəvanda jurnalistlərin suallarına cavab verərkən iki ölkə arasındakı hərbi əməkdaşlıq üçün potensialın olduğunu vurğulayıb. Hərbi attaşe eyni zamanda hərbi texnologiyalar sahəsində əməkdaşlıq imkanlarının da mövcud olduğunu bildirib.**




Hərbi attaşe bu haqda danışarkən maraqlı cümlə də işlədib: “Birgə əməkdaşlıq sayəsində sülhə nail olacağıq”.

Görəsən hərbi attaşe hansı sülhü nəzərdə tutub?

“Atlas” Araşdırmalar Mərkəzi hesab edir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyan sənədə imza atmayana qədər İrəvanın hansı böyük dövlətlə əməkdaşlıq etməsinə baxmayaraq, sülhə nail olmaq mümkün deyil:

“Çinli hərbi attaşe Ermənistanın ünvana başqa təriflər də söyləyib: ”Ermənistan və Çin mədəniyyət və tarix sahəsində ortaq nöqtələrə malikdirlər, hər iki dövlət müxtəlif çətinliklərdən keçiblər. İki ölkə arasında əməkdaşlığı gücləndirməyə ehtiyac var". Maraqlıdır ki, Çin Müdafiə Nazirliyi tərkibində fəaliyyət göstərən Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri bun günlərdə Ermənistana səfər etmiş, İrəvanda hərbi əməkdaşlığın inkişafı yolları müzakirə etmişdi. Pekin erməni hərbçilərin Çində təhsil almalarına da maraq göstərir.

Çini Ermənistanla hərbi əməkdaşlığa iki amil sövq edə bilər.

Birincisi, Çin Rusiyanın hərbi müttəfiqləriylə sıx əlaqələrə malik olmaq istəyir. Pekin Rusiyanın Cənubi Qafqazdakı forpostu olan Ermənistanla da hərbi sahədə əməkdaşlığı genişləndirmək istəyir. Pekin bu yolla Ermənistanı həm də Qərbdən uzaq tutmağa çalışır.

İkincisi, Pekin Ermənistan-Hindistan yaxınlaşmasından və hərbi əməkdaşlığından narahatdır. Pekin Hindistanın bölgədə istənilən fəallığını diqqətlə izləyir və bunun qarşısını almaq yollarını araşdırır.

Pekin bu iki amildən çıxış edərək Ermənistanla hərbi əməkdaşlığı genişləndirmək istəyirsə, bunun Azərbaycanda mənfi qarşılacağını da anlamalıdır. İyulun 24-də Bakıda Çin ordusunun yaradılmasına 96-cı ildönümünə həsr olunmuş tədbir keçirildi. Həmin tədbirdə çıxış edən Çinin Azərbaycandakı hərbi attaşesi Van Ley daim dəyişən dünyada iki ölkənin silahlı qüvvələri arasında dostluq və əməkdaşlıq münasibətlərinin dərinləşməsinin köklü maraqlara cavab verdiyini söyləmişdi. Ancaq dəyişən Cənubi Qafqazda Ermənistanla hərbi əməkdaşlığı genişləndirməyə maraq göstərən dövlətin Azərbaycanla dərin əlaqələr qurması problematikdir".

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023

# "Lavrov planı" açıqlandı: Xankəndi erməniləri vəzifə tuta bilməyəcək!

## Rusiyanın 14 maddəlik sənədində Qarabağ ermənilərinə bəzi imtiyazlar tanınır, Azərbaycanla Ermənistan arasında ayrıca saziş təklif edilir; ekspertlərin fikrincə, son üç bənd etnik separatizmin toxumlarının saxlanmasına hesablanıb

**Qarabağın separatçı rəhbərliyinin nümayəndələri yerli ictimai fəallara Xankəndi ilə rəsmi Bakı arasında ermənilərin Azərbaycanda yaşaması ilə bağlı sülh müqaviləsi layihəsinin surətini veriblər. "Yeni Müsavat" bildirir ki, sənədi Rusiya Xarici İşlər Nazirliyi hazırlayıb. Layihənin adında onun Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin məskunlaşması üçün təklif edildiyi vurğulanır. Sənədə baxıldıqda aydın olur ki, Azərbaycan qanunvericilik səviyyəsində ermənilərin bütün mədəni və humanitar hüquqlarını, eləcə də Qarabağın erməni əhalisinin özünüidarəetmə hüququnu ölkə qanunları çərçivəsində təmin edəcəyini vəd edir.**

Bu, məktəbəqədər təhsil müəssisələrində, ibtidai, orta və ali təhsil müəssisələrində erməni dilinin istifadəsinə və inkişafına, ana dilində tədrisə də aiddir. Azad etiqad hüququ təmin edilir. Bakı Ermənistanla biznes və humanitar təmasların mümkünlüyü ilə region ermənilərinin hüquqlarını qanunvericilik səviyyəsində təmin etməyə razıdır.

Rusiyanın təklifi sənəddə Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən yalnız məhkəmə tərəfindən tanınmış cinayətləri törətmiş ermənilərin cinayət təqibinə məruz qalması nəzərdə tutulur. Azərbaycana qarşı müharibələrin iştirakçıları və separatçı rejimin cinayəti olmayan məmurları cəzadan azad edilir. Layihədə separatçıların danışıqlarda beynəlxalq iştirak və Azərbaycandan kənarda ikinci erməni dövlətinin yaradılması ilə bağlı tələb etdiyi şərtlər yoxdur. Xankəndidə qeyd ediblər ki, layihə Bakı tərəfindən dəstəklənir, lakin separatçılar tərəfindən rədd edilir. "Əslində çıxış yolu yoxdur, ona görə də imzalamaq lazım gələcək", - deyə Vahan Poqosyan fikirlərini bölüşür.

Qarabağ ermənilərinin inteqrasiyası layihəsi"nə münasibət bildirən politoloq Zərdüşt Əlizadə bildirib ki, ortada iki seçim var: ya yeni müharibə, ya da beynəlxalq hüquqda təsbit olunmuş və heç bir dövlətin mənafeyinə ziyan vurmayan haqların tanınması. "Bu gün Qarabağda ermənilər yaşayır və onların bələdiyyə qurumları var. Bələdiyyələrin qərarı ilə onların ərazisində, yol işarələrində, kənd adlarında və s. yerlərdə Azərbaycan dili ilə yanaşı, erməni dilindən də istifadə olunacaq. Mən bunda heç bir qəbahət görmürəm. Milli azlıqların məktəbi də olmalıdır. Azərbaycan Konstitusiyası buna icazə verir, qadağan deyil"-, Z.Əlizadə deyib. Politoloq bildirib ki, ermənilər Azərbaycanın dövlət dilini zəif bilərsə, bu, onların problemi olacaq: "Deməli, dövlət aparatında yüksək vəzifə tuta bilməyəcək, çünki dövlət dilini yaxşı bilmir. Ona görə də Azərbaycan dilini mükəmməl bilməlidir. Deyək ki, Qarabağ erməniləri indiki mərhələdə öz dillərinin qorunmasını tələb edir. Bir azdan onların heç biri erməni dili ilə maraqlanmayacaq". Siyasi təhlilçi hesab edir ki, Azərbaycan hökuməti Konstitusiyada insan hüquqlarını pozmayan istənilən hüququn tanınmasına razı olmalıdır: "Bu adamlar erməni kilsəsinə getmək istəyirsə, getsin, mahnı və kitab oxumaq istəyirsə, oxusun, erməncə təhsil almaq istəyirsə, alsın. Kim ona mane olacaq? Bu, dövlətə qarşı fəaliyyət deyil, insan haqlarının icrasıdır. Bunlar bütün demokratik ölkələrdə qəbul olunub".

Sənədin 12-ci bəndində Ermənistan və Azərbaycanın ayrıca sazişi ilə Qarabağ ərazisində yaşayan erməni əhalisinin Ermənistanla təhsil, mədəni, elm, media, idman və digər humanitar əlaqələrin təmin edilməsi təklifi var. 13-cü bənddə isə erməni əhalisinin digər dövlətlərin ərazisində qanuni olaraq yerləşən şəxslərlə, xüsusən də ortaq etnik, mədəni, dil və dini mənsubiyyəti və ya ümumi mədəni mənsubiyyətini bölüşdükləri şəxslərlə sərhədi keçərək, azad və dinc münasibətlərin qurulması və saxlanılması nəzərdə tutulur. Həmçinin, sonuncu - 14-cü bənddə erməni əhalisi üçün kənardan iqtisadi və humanitar yardımların maneəsiz alınması təklif edilir. Bütövlükdə layihə "Lavrov planı" adlanır.

Professor Qabil Hüseynlinin "Yeni Müsavat"a bildirdiyinə görə, həmin sənəd mükəmməl deyil, beynəlxalq hüququn normalarına uyğun hazırlanmayıb. Professor hesab edir ki, sənəddə Rusiyanın strateji maraqları daha çox hiss edilməkdədir: "Moskvanın təklifləri ola bilər, amma özünün subyektiv fikirlərini hökm-zər, imperativ kimi qəbul etdirə bilməz. Sənəddə Qarabağ erməniləri üçün ayrı-ayrı maddələrdə statusdan yüksək təkliflər verilir. Ona görə Rusiya bu təkliflərlə bu müzakirələrdə iştirak edə bilər, amma ermənilərin bu günü və gələcəyi ilə bağlı məsələlər Azərbaycanın hakimiyyət orqanları tərəfindən ölkənin konstitusiyasına uyğun surətdə verilməlidir".

AMİP sədri Arzuxan Əlizadənin dediyinə görə, Azərbaycanın təklif etdiyi sənəd daha məqbuldur: "Azərbaycan çoxmillətli ölkədir, ermənilər burada yaşayan etnik xalqlardan artıq deyillər ki, əksikdirlər. Çünki bütün faciələrin, bəlaların müəllifidirlər. Ona görə Qarabağ ermənilərinə xüsusi imtiyazlar, səlahiyyətlər vermək olmaz. Bu, sonrakı dövrdə əlavə problemlər də meydana çıxara bilər. Onlar Azərbaycanın diktə etdiyi şərtlər daxilində yaşamalıdırlar. Ermənilərin yerli özünüidarəetmədə təmsilçiliyi qəbul edilir, seçkidə iştirak hüquqları var, amma xüsusi hüquqlar ola bilməz". AMİP sədri xatırladır ki, "Lavrov planı" BMT dinləmələrindən əvvəl təklif edilmiş sənəddir, lakin nə Azərbaycan, nə Ermənistan bu layihəyə rəsmi münasibət bildirib: "Lavrov deyir ki, xarici işlər nazirlərinin görüşündə ortaya çıxan sənəddir. Azərbaycan Xarici İşlər Nazirliyi təkliflərə cavab verə bilər, amma indiyə qədər reaksiya olmayıbsa, deməli, o qədər də ciddi yanaşma yoxdur".

Siyasi şərhçi Asif Nərimanlı bu son iki bəndə diqqəti cəlb edərək təhlükəli nüanslar olduğunu düşünür. Onun sözlərinə görə, ermənilər ümumən bu təklifləri süngü ilə qarşılayır, çünki sənəd Qarabağda separatizmin ləğv edilməsi, Azərbaycan suverenliyinin təmin edilməsini dəstəkləyir: "Separatizmi dəstəkləyən Rusiyanın mövqeyinin xeyli yumşalması fonunda da təkliflər cəlbedici görünür. Lakin tamamilə Azərbaycanın xeyrinədir demək də mümkün deyil, xüsusilə son 3 bənd bu yöndədir. Azərbaycan erməni əhalisinin hüquq və təhlükəsizliyinin qorunmasına tam zəmanət verir, lakin burada kənar ölkənin iştirakı qəbuledilməzdir. 12-ci bənd Azərbaycan və Ermənistan arasında Qarabağla bağlı ayrıca sazişin imzalanması nəzərdə tutulur. 13-cü bənd erməni diasporunun Qarabağa müdaxiləsinə, həm də istədikləri vaxt sərbəst girişinə zəmin yaradır. 14-cü bənd isə erməni əhalisinə kənardan iqtisadi və humanitar yardımı şərtləndirir". Ekspertin fikrincə, təkliflər bölgədə Azərbaycan qanunvericiliyinin bərpasını nəzərdə tutusa da, son üç bənd etnik separatizmin toxumlarının saxlanılmasına hesablanıb: "Yerdə qalan 11 bənd də bu və ya digər formada etnik separatizmi stimullaşdıracaq amillərdir. Və ən əsası bu təkliflər Rusiyanın "zəmanətçi" kimi Qarabağda davamlı qalmasına şərait yaradır. Azərbaycan üçün yeganə yol Qarabağdakı erməni əhalisi ilə kənar qüvvənin iştirakı olmadan danışmaq, onların vətəndaşlığı qəbul edərək, respublika ərazisindəki digər etnik - dini qruplar kimi bərabərhüquqlu şəkildə yaşamasını təmin etməkdir".



**Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Araik istefa verməyib

**Azərbaycan torpağında Kremlin himayəsi altında baş separatçılıq edən və Azərbaycan dövlətinin 3 ilə yaxındır ki, İnterpolla beynəlxalq axtarışa verdiyi Araik Arutyunyanın Xankəndindəki qondarma "prezident" kürsüsündən istefaya getmək niyyəti yoxdur.**

Bu barədə Tert.am-a baş separatçının mətbuat katibi Lusine Avanesyan internetdə A. Arutyunyanın istefaya getməsi ilə bağlı yayılan informasiyaları şərh edərkən danışıb.

"Araik Arutyunyan bir sıra görüşlər keçirib, görüşlərdə istər yaranmış hərbi-siyasi vəziyyətlə bağlı, istərsə də Azərbaycanın blokadaya alınması ilə əlaqədar ölkənin gündən-günə artan daxili problemlərinin həlli yolları ilə bağlı aktual məsələlər müzakirə olunub"- qondama qurumun mətbuat katibi izah edib.

Xatırladaq ki, erməni sosial şəbəkələrində Araik Arutyunyanın gündəlik iş saatlarından sonra tutduğu vəzifədən istefa verməsi ilə bağlı xəbərlər yayılmışdı.



# Xankəndidəki qondarma spiker otağına onun şəklini asdı

**Separatçı-terrorçu rejimin bu günlərdə təyin olunmuş qanunsuz "qanunverici orqanı"nın rəhbəri, terrorçu "Daşnaksütyun"un Xankəndidəki nümayəndəsi David İşxanyan xuntanın "müdafiə naziri", "müdafiə ordusu"nun komandanı Kamo Vardanyanı qəbul edib.**

Bu barədə erməni mediası qondarma "parlament"in mətbuat xidmətinə istinadla məlumat yayıb.

Daşnak "spiker" "qeyd edib ki, qanunvericilik təşəbbüsləri ilə yanaşı, ilk növbədə, o, "artsax" xalqının təhlükəsizliyinin əsas qarantı olan və olacaq müdafiə ordusu tərəfindən təmsil olunan artsaxın təhlükəsizlik və müdafiə sisteminə əhəmiyyət verir.

Kamo Vardanyan David İşxanyanı təbrik edib və təhlükələrə birlikdə müqavimət göstərməyə hazır olduğunu bildirib. Komandan hazırkı vəziyyətdə müdafiə ordusunun qarşısında duran vəzifələrə və onların həlli yollarına toxunub" -xəbərdə belə deyilir.

Moderator.az yazır ki, xəbərə əlavə olunan fotoda daşnak "spiker"in qəbul otağında əli türk diplomatlarının və I Qarabağ savaşında yüzlərlə Azərbaycan vətəndaşının qanına batmış beynəlxalq terrorçu Monte Melkonyanın portreti görünür.



# Taksilərlə bağlı yeni qaydalar rəsmiləşdi

**Prezident İlham Əliyev avtomobil nəqliyyatı ilə daşımada yenilikləri nəzərdə tutan qanunlar zərfini imzalayıb.**

"Lisenziyalar və icazələr haqqında" qanuna dəyişiklik taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi, taksi sifarişi operatoru fəaliyyətinə icazə tələbi də qoyur.

"Dövlət rüsumu haqqında" qanunda yeniliklərlə taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsinə görə 125 manat, hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsinə görə 25 manat, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsinə görə 3000 manat dövlət rüsumu müəyyən olunur.

"Avtomobil nəqliyyatı haqqında" qanunda yeniliklərin biri taksi minik avtomobillərində qət edilən məsafənin və boşdayanmanın müddətinin uçotunu aparan, gediş haqqının məbləğini hesablayan taksometr quraşdırılmasını hökm edir.

Yeniliklər 2023-cü il oktyabrın 1-dən qüvvəyə minir.

İnzibati Xətalar Məcəlləsində yeniliyə əsasən, daşıma qaydalarının pozulması üzrə cəzalar gəlir. Məsələn, buraxılış vəsiqəsi olmadan taksi minik avtomobilləri ilə sərnişin daşınmasının təşkilinə görə vəzifəli şəxslərə 200 manat, hüquqi şəxslərə 1000 manat, buraxılış kartı olmadan taksi minik avtomobilləri ilə sərnişin daşınmasına görə 50 manat cərimə düşür.

Əməllərin təkrar törədilməsi halında cərimələr artır.

İcazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərilməsinə görə vəzifəli şəxslər 10000 manat, hüquqi şəxslər 40000 manat cərimələnir.

Cəzalar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

# Korrupsiya həbsləri məmurları durdurmur - 88-1 maddəsi geri qayıtmalı...

## **Hüquqşünas:** "Azərbaycanda məmurların mal-mülkü və vəsaitləri hər il 100-200 faiz artır"



**Son günlər ölkədə yenidən məmurların həbsi ilə bağlı xəbərlər artıb. Belə ki, ölkəyə idxal edilmiş məhsulların gömrük rəsmiləşdirilməsi prosesində süni maneələr yaradaraq sonradan gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi müqabilində vətəndaşdan rüşvət alan bir qrup vəzifəli şəxs cinayət başında yaxalanıb.**

DGK-nın Bakı Baş Gömrük İdarəsinin Gömrük dəyərləndirilməsi şöbəsinin inspektoru Məzahir İsmayılovun qeyd edilən qanunsuz əməllərin törədilməsi üçün ona vasitəçilik edən Sosial Xidmətlər Agentliyinin Quba-Xaçmaz Regional filialının müdiri Elşan Abdullayev və "Ər Transport" MMC-nin faktiki rəhbəri Ədalət Quliyevlə əlbir olub vətəndaşa məxsus şirkətin hesabına idxal edilmiş avtomobil ehtiyat hissələrinin gömrük rəsmiləşdirilməsində süründürməçilik hallarına yol verməsi, daha sonra səthi baxış keçirməklə malların gömrük nəzarətindən sürətli şəkildə buraxılmasına görə həmin şəxsdən 8 min manat məbləğində rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində həbs qətimkan tədbiri seçilib.

Ölkədə illərdir antikorrupsiya əməliyyatları həyata keçirilir, icra başçıları, nazir müavinləri, hətta nazirlər həbs edilir. Görünən budur ki, həbslərdən, xəbərdarlıqlardan nəticə çıxarmayan məmurlar qalmaqdadır və onlarla mübarizə daha da gücləndirilməlidir. Yaxud da digər təsirli tədbirlər görülməlidir.

Hüquqşünaslar isə deyir ki, hüquq mühafizə orqanları bir tərəfdən korrupsiyaya bulaşmış məmurları həbs edir, digər tərəfdən Azərbaycan məhkəməsi həmin məmuru 3-5 ilə açıb buraxır. Müşahidələr də göstərir ki, korrupsiya ittihamı ilə həbs olunan sabiq məmurların böyük əksəriyyəti vaxtından əvvəl azadlığa buraxılır. Bu, digər məmurlarda "tutulsam da, tezliklə azadlığa çıxacam" kimi arxayınlıq yaradır. Halbuki SSRİ dönəmində ən ağır cinayətlər sırasında rüşvətxorluq və mənimsəmə də vardı ki, maddənin (88-1) sanksiyasında ölüm cəzası da nəzərdə tutulurdu. Ekspertlərə görə, həbs olunan şəxs cəzasını günə-gün çəkməlidir və belə şəxslərə qarşı qanunun ən sərt üzü göstərilməlidir. Əks halda, korrupsiyaya qarşı mübarizə effekt verməyəcək.

Ekspertlər hansı üsullar təklif edir? Dərs çıxarmayan məmurlarla nə etməliyik?

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Azərbaycanda rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə istənilən nəticə əldə olunmur: "Bunun bir neçə səbəbi var. Əsas səbəb məmurların gəliri haqda bəyannamə verməməsidir. Əgər məmur ilin əvvəlində bəyannamə verib göstərsə ki, 100 min manatlıq mal-mülkü, 100 min manat da vəsaiti var, növbəti ildə bəyannamə yazarkən bu rəqəm uzağı 10 faiz civarında arta bilər. Azərbaycanda isə məmurların mal-mülkü, vəsaitləri hər il 100-200 faiz artır. Yeni korrupsiya səviyyəsi yüksəkdir. Bu istiqamətdə institusional tədbirlər görülür. Əlbəttə ki, cəza tədbirləri də paralel olaraq aparılır. Azərbaycanda korrupsiyaya qarşı mübarizə çərçivəsində həbsə alınanların sayında yüksəliş var. Bu yüksəliş vəziyyətin dəyişməsinə təsir etmək gücündə deyil. Vəziyyəti dəyişmək üçün radikal addımlara ehtiyac var. Amma bu addımlar görüntü xatirinə olmamalıdır".

Hüquqşünas deyir ki, 2007-ci ildə "Şəffaflığın Artırılması və Korrupsiyaya Qarşı Mübarizə üzrə Milli Strategiya" qəbul olunub: "Sonradan bu strategiya üzrə fəaliyyət planında nəzərdə tutulmuş işlərin icrasının sürətləndirilməsi istiqamətində ciddi göstərişlər verildi. Ötən müddətdə isə mübarizəni sürətləndirmək üçün çox əhəmiyyətli prezident fərmanları oldu, bir sıra qanunlara əlavə və dəyişikliklər edildi. Bu proses bu gün də davam etməkdədir. Bu gün ən müxtəlif qurumlarda, nazirliklərdə əyri yollara əl atan vəzifə sahibləri, məmurlar var. Belə vəzifə sahiblərinin həbsi, qandallanması olduqca vacibdir. Dövlət Təhlükəsizliyi Xidmətinin həyata keçirdiyi əməliyyatlar ümumilikdə ölkədə ab-havanı dəyişib, feodal təfəkkürlü icra başçılarının sərhədsiz qanunsuzluqları nisbətən də olsa aradan qalxıb. Belə tədbirlərin davamlı olması ümumilikdə duruma müsbət təsir edir. Zaman-zaman qanunsuzluq edən, dövlətin xalqa, millətə yönəlik addımlarına kölgə salan icra başçıları, nazirlər öz cəzalarını alırlar. Onları nəzarətdə saxlayırlar, araşdırırlar, yeri gələndə həbsə alır, cəzaya çatdırırlar. Kimliyindən asılı olmayaraq iş yerində korrupsiyaya, rüşvətə yol verirsə, əvvəl-axır onlar cəzasını alacaq".

Hüquqşünas deyir ki, qanunun sərt üzü tam şəkildə korrupsiyaya bulaşmış məmurlara tətbiq olunmalıdır: "İcra başçıları, nazir müavinləri, bələdiyyə sədrləri və digər məmurlar həbs olunur. Qanuna görə, həbsə alınan şəxslərin mal-mülklərinin üzərinə həbs qoyulur, həmin əmlaklar həbsə alan orqanın sərəncamında olur. Məhkəmənin hökmündən asılı olaraq həmin əmlaklar dövlət nəfinə keçə də bilər. Hər şey son nəticədə məhkəmənin çıxardığı hökmdən asılıdır. Məhkəmələr belə hallarda birmənalı şəkildə korrupsiya əməli təsdiq olunan məmurun əmlakının müsadirəsi haqda qərar verməlidir. Əks halda, korrupsiyanın kökünü kəsmək çətin olacaq".

Hüquqşünas deyir ki, Azərbaycanda müsadirə praktikası var: "15 ildir ki, bu praktika tətbiq olunur. Nazirlərin, məmurların əmlakları müsadirə olunur. Lakin çox vaxt hakimlər müsadirə məsələsində tərəddüd edirlər. Cəmiyyət müsadirə məsələləri haqda məlumatlanmır. Amma yaxşı olardı ki, müsadirə olunmuş əmlaklarla bağlı ayrıca ictimaiyyətə məlumat verilsin. Hər kəs bilsin ki, dövlətdən oğurlanan əmlak gec-tez geri alınır. Başçılar, məmurlar tərəfindən sahibkardan, iş adamlarından alınan əmlaklar, pullar da həmin o müsadirə olunan əmlakların, pulların hesabına sahiblərinə qaytarılmalıdır. Bu gün həbsdə olan icra başçılarının rüşvət aldığı, əmlakını mənimsədiyi vətəndaşlar çəkinmədən istintaq orqanına müraciət etməlidirlər".

Hüquqşünas deyir ki, antikorrupsiya tədbirlərinə məhkəmə sistemi də uyğun qərarları ilə dəstək verməlidir: "Bu gün hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatlarla həbsə alınan nazir, icra başçısı məhkəmələrin hesabına cəzadan tez bir zamanda azad ediləcəklərinə arxayındırlar. Ona görə də onlarda belə bir düşüncə formalaşıb ki, bacardığım qədər çox oğurlayım ki, həbsə alınsam, bir hissəsini xərcləyim, həbsdə kef edim, qısa müddətdə azadlığa çıxım və pulları da götürüb ölkə xaricində özümə gün ağlayım. Bu düşüncə məmurları daha çox oğurlamağa, daha çox talamağa sövq edir. Odur ki, məhkəmələr korrupsiya cinayətləri ilə bağlı həbsə alınanlara qarşı bacardıqca qanunun sərt üzünü göstərməlidirlər. Məhkəmələrdə korrupsionerlərə loyal münasibət göstərilməsi praktikasına birdəfəlik son qoymalıdırlar. Əks halda, korrupsiya ilə mübarizə istənilən effekti verməyəcək. 1 ildən artıqdır ki, Səlim Müslümovun məhkəməsi gedir. Kimdir bu adam? 5 il əmək və əhalinin sosial müdafiəsi naziri olub. Nə qədər büdcə pulunu oğurlayıb? İş üzrə 27 milyon manat büdcə vəsaitinin oğurluğu var! İlinə az qala 6 milyon manat oğurluq! Amma bir nə görürük? Səlim Müslümov məhkəməyə evindən gəlib gedir. Ona niyə belə münasibət göstərilir? Axı Azərbaycan türmələrində ağır xəstə olan neçə-neçə məhbuslar var. Bu adamları həbsdə saxlayıb Səlim Mülümovun azadlıqda gəzib dolanmasına şərait yaratmaq əlbəttə ki, korrupsiya ilə mübarizə tədbirlərinə kölgə salır. Görülən işləri sıfırlayır. Ona görə də korrupsiya əməli məhkəmə hökmü ilə təsdiqlənən məmurun əmlakı qeyd-şərtsiz müsadirə olunmalı, onun taladığı sahəyə, rayona qaytarılmalı, xalqın, millətin bu çətin gündə rifahına xərclənməlidir. Onun özü isə ən sərt cəzaya çatdırılmalıdır. Bu gün sadaladıqlarım yoxdur, ona görə də vəziyyət dəyişmir".

**❑ Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında görüşün keçirilməsi gözlənilir. Lakin bu görüşün nə məkanı, nə də zamanı hələlik bəlli deyil. İki ölkə rəsmiləri görüşlə bağlı detalları müzakirə edir. Təfərrüat açıqlanmır. Son iddialara görə isə görüş avqustun 31-də baş tuta bilər.**



# Ərdoğan-Putin görüşünün Bakıda keçirilməsi iddiası

## Elxan Şahinoğlu: "İki ölkənin prezidentləri Bakıda görüşərlərsə, bu, Azərbaycanın faydasına olar, amma..."

Bildirilir ki, görüş ya Ankarada, ya da Soçidə ola bilər. Rusiyalı politoloq Sergey Markov bu günlərdə bildiruib ki, Putinin Türkiyədə təhlükəsizlik problemi ola bilər.

"Təbii ki, Türkiyə NATO üzvü olduğundan, ABŞ və Böyük Britaniya kəşfiyyat orqanları terrorçu mübarizə üsullarından fəal istifadə etdiyi üçün Putinin Türkiyədə təhlükəsizlik problemləri ola bilər. Ərdoğanın Soçidə təhlükəsizliyi tam təmin olunub", - politoloq qeyd edib.

Türkiyə və Rusiya prezidentləri iyulda görüşməli idilər. Ötən ay Türkiyə və Rusiya arasında siyasi böhranın baş verməsi iki ölkə başçılarının görüşünü təxirə saldı.

Bu arada isə Putin və Ərdoğanın Bakıda görüşə biləcəyinə dair iddialar yayılıb. Bəzi ekspertlərə görə, "Azov" döyüşçülərinin Kiyevə verilməsindən sonra Ankara və Moskva arasında yaranmış gərginlik ötüşür və əslində indi tərəflər arasında heç bir dərin böhran yoxdur. Rusiyanın Türkiyə ilə iqtisadi əlaqələri və strateji tərəfdaşlıq iki ölkə arasında əlaqələrin normallaşmasını labüd edir.Tərəflər arasında əvvəllər də problemlər olub, amma ölkə liderlər ortaq məxrəcə gəlib.

Yada salaq ki, ilk dəfə 2018-ci ilin dekabrında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov NATO Müttəfiq Qüvvələrinin Avropadakı o zamankı baş komandanı Körtis Skaparrotti ilə Bakıda danışıqlar aparmışdı. 2019-cu ilin yayında isə Baş Qərargah rəisi Valeri Gerasimovun Bakıda NATO-nun Avropada Müttəfiq Qüvvələrinin yeni Ali Baş Komandanı Tod Uoltersla görüşmüşdü. Görüşün Bakıda keçirilməsi tərəflərin, əlbəttə ki, Azərbaycana etibar etməsinin göstəricisi sayılırdı.

Azərbaycan nə Ərdoğan Türkiyəsinin təmsil olunduğu NATO-nun, nə də Rusiyanın əsas söz sahibi olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil. Bu, indiki həssas dönəmdə Bakıda görüş üçün daha bir səbəb kimi görünə bilərmi? Bəs görüş yeri kimi Bakının adının hallanması nə qədər real ola bilər?

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Rusiya prezidenti Vladimir Putin Türkiyəyə səfərlə bağlı yekun qərar verməyə tələsmir: "Halbuki Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı ilə son telefon danışığından sonra Vladimir Putinin bu ayın sonunda Ankaraya gələcəyini bildirmişdi. Kreml isə hələ ki, susur, səfər xəbərini təsdiq etmir. Bu isə Putinin nədən Türkiyəyə səfər etmək qərarında tərəddüd keçirdiyi sualını meydana gətirir. Bunun bir neçə səbəbi var. Birincisi, Rusiya Türkiyə ilə müxtəlif sahələrdə əməkdaşlığını davam etdirsə də, iki ölkə arasında fikirayrılığı yaradan mövzular da az deyil. Məsələn, Kreml Türkiyənin Ukraynaya pilotsuz uçuş aparatları satmasını hələ də həzm edə bilmir. Türkiyə Ukraynaya nəinki pilotsuz uçuş aparatları satır, üstəgəl Ukraynada dron istehsal edən zavodun tikintisinə də yardım edir. Yəqin Putin düşünür ki, bu şərtlər altında Türkiyəyə səfər etsə, Ankaranın Kiyevə dəstəyinə göz yummaq məcburiyyətində qalacaq. Putin belə bir görüntünün yaranmasını istəmir. Son günlər Rusiya-Türkiyə münasibətlərində başqa hadisələr də yaşanır. Kremlin Rusiya televiziya kanallarındakı rupor-aparıcıları keçmiş illərdə olduğu kimi Türkiyə əleyhinə açıqlamalar verirlər. Bundan başqa, Rusiya hərbçiləri Qara dənizdə üzən Türkiyənin ticarət gəmilərinə basqın təşkil ediblər. Putinin birbaşa tapşırığı olmadan Türkiyənin gəmisinə basqın düzənləmək mümkün deyil. Deməк, Putin ikili oynayır. Bu vəziyyətdə Putinin Türkiyəyə səfəri təxirə salına bilər. Başqa variantlar da var. Putin Ərdoğanı Soçiyə dəvət edə və ya görüş üçüncü ölkələrdən birində baş tuta bilər. Görüş yeri kimi Bakının adı hallanıb. İki ölkənin prezidenti Bakıda görüşərlərsə, bu Azərbaycanın faydasına olar. Ancaq görüşün Bakıda baş tutma ehtimalı yüksək deyil. Çünki belə görüntü yaranacaq ki, Putin və Ərdoğan arasında fikirayrılığı o qədər dərindir ki, iki ölkənin lideri başqa ölkədə görüşməyə qərar veriblər. Belə bir görüntü hər iki liderin ziyanınadır. Ərdoğanın Putinlə görüşmək üçün Moskva və ya Soçiyə getməsi isə Türkiyə müxalifəti tərəfindən kəskin tənqid olunacaq. "Putin Ankaraya gəlməkdən imtina etdiyi halda, Ərdoğan niyə Moskvaya gedir" sualı səslənəcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## Türkiyənin taxıl müqaviləsi ilə bağlı üç ssenarisi

**Türkiyədə taxıl müqaviləsi ətrafında vəziyyətin inkişafı ilə bağlı üç ssenari müzakirə olunur.**

Bu barədə "Yeni Şafak" qəzeti bildirib.

Qəzetin yazdığına görə, birinci ssenari mövcud vəziyyətdən çıxış yolunun tapılmayacağı ilə bağlıdır. Bu halda ərzaq böhranı kəskinləşə bilər. Bu isə Rusiya, Ukrayna və ABŞ-ın maraqlarına uyğun gəlmir.

İkinci ssenari isə "ikitərəfli razılaşmalar əsasında birtərəfli hərəkətlə alternativ yolların yaradılmasını"nəzərdə tutur. Bu halda söhbət Ukraynanın kənd təsərrüfatı məhsullarının Dunay vasitəsilə və ya qurudan Avropaya çatdırılmasından gedir.

Üçüncü ssenariyə görə, "Rusiyanın bəzi narahatlıqları aradan qaldırıldıqdan" sonra taxıl dəhlizi əvvəlki formatda fəaliyyətini bərpa edəcək.

## Mehmet Şimşək istefa verib?

**Türkiyənin xəzinə və maliyyə naziri Mehmet Şimşəkin istefa etməsi ilə bağlı iddialar həqiqətə uyğun deyil.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi məlumat yayıb.

Qeyd olunub ki, M. Şimşək vəzifəsini icra etməyə davam edir, yayılan xəbərlər isə dezinformasiya xarakteri daşıyır.

# İranda tutulan azərbaycanlı tələbənin evinə gizli kamera quraşdırılıb

## Fərid Səfərlinin avro ilə kirayə ödənişi, Almaniyaya 22 dəfə zəngi və 2 il həbs cəzası



**"Fəridlə avqustun 17-də danışdıq. Hakim son məhkəmə olmadan, Fəridə son söz vermədən, öz kabinetində 2 il həbs hökmü çıxarıb".**

Bu barədə "Yeni Müsavat"a İranda casusluq ittihamı ilə saxlanılan Fərid Səfərlinin anası Dilarə Əsgərova bildirib. O qeyd edib ki, Fərid artıq qərarı məktub şəklində alıb. Fərid qərarla razılaşmır, heç bir sübut olmadan bu cəzanın verilməsini qəbul edə bilmir.

D.Əsgərova hökmün verilməsi üçün hakimin istinad etdiyi "sübutlar" barədə də məlumat verib:

"Birincisi, Fərid İranda tutduğu evin kirayə pulunu avro ilə ödəyib və bununla da İran ərazisində qeydiyyata düşmək istəməyib. Halbuki bunu ev yiyəsi təklif edib ki, avro ilə də ödəniş edə bilərsən.

İkincisi, Fəridin kirayə tutduğu evə İrandan çıxmağa 4-5 gün qalmış gizli kamera quraşdırılıb və qızla ingiliscə olan danışıqlar qeydə alınıb. Məhkəmədə həmin səs yazıları və bu səsin farscaya tərcüməsi səsləndirilib, Fəridin deməsinə görə səs yazısında əslində heç bir sübut yoxdur, sadəcə tərcümə çox ciddi təhrif olunub.

Məsələn, Fərid internetin zəifliyindən mənimlə əlaqə saxlaya bilməməsindən qıza gileylənib, bunu məhkəmədə fars dilində Fəridin İranda kiminləsə görüşə bilməməsi kimi elan ediblər. Ona görə Fəridlə İranda başqa tərcüməçi tutub materialı yenidən tərcümə etdirməyə qərar verdik.

Üçüncüsü, Fərid guya 2022-ci ildə İrana alman nömrəsi ilə 22 dəfə zəng vurub. Fərid bu iddianı rədd edib və bu zənglərin çıxarışını tələb edib . Ona bildirilib ki, xarici zənglərin çıxarışını çıxartmaq mümkün deyil. Fərid sual verib ki, bəs haradan bildiniz ki, bu nömrələrə mən zəng etmişəm. Təbii ki, qaneedici cavab almayıb".

Ana qeyd edir ki, vəkilin hakimlə görüşü zamanə hakim qeyd edib ki, məhkəmə zamanı Fəridin özünü dikbaş, yəni günahkar deyil, tələbkar kimi aparması onun xoşuna gəlməyib: "Sən bir məsum gəncin həyatını cəhənnəmə döndər və ondan özünə qarşı normal rəftar gözlə. Nə qədər anormal bir yanaşmadır. Bu ədalətsiz hökm məni çox ağrıdır. İllərini ver təhsil al, dillər öyrən, peşəni təkmilləşdir, çoxdan arzuladığın bir iş təklifi al , işə başlayana qədər gedib sevdiyinlə görüşməyi planla, axırda səni belə şərləsinlər.

Fərid sonda mənə dedi ki, SEPAH-ın zindanında yaşadıqlarına baxmayaraq, ( nə qədər təkid etdimsə də bu haqda danışmayacağını bildirdi), çıxandan sonra bütün bunları unutmağa çalışacaq və həyatında yenidən hər şeyi yoluna qoyacaq".

Yada salaq ki, Almaniyanın Yena Universitetinin tələbəsi 1997-ci il təvəllüdlü Fərid Qabil oğlu Səfərli bu il fevralın 20-də İrana səfər edib. Martın 4-dən bəri isə ondan xəbər almaq mümkün olmayıb. Sonradan məlum olub ki, Fərid Səfərli İranda həbs olunub.

19 iyul tarixində keçirilmiş məhkəmə iclası zamanı Fərid Səfərliyə qarşı irəli sürülmüş "casusluq" ittihamı "casusluq etmək niyyəti" ittihamı ilə əvəz olunub.

❑ **Afaq MİRAYİQ, Musavat.com**

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023

# Rasim müəllim haqda fikirlərim



Zamin HACI
zaminhaci@gmail.com

**Öncə mən Rasim Balayev mövzusunda... Zarafat eləyirəm, qorxmayın, bu gün həmin söhbətə qatılmaq fikrim yoxdur.**

Əslində, "ümumiyyətlə fikrim yoxdur" yazsam, bəlkə, dəqiq olar. Fikir nəyimizə lazımdır? Fikirdən hələ heç kəs xeyir görməmişdir. Atalarımız demişkən, birini gör şükür eylə, birini gör fikir eylə. Biz şükür eləyənlərdən olmalıyıq. Bütün müsəlman aləminin hazırkı xoşbəxt vəziyyəti məhz şükür etməyinə görədir. İmkan olsa bu yay Nigerə, ya da Əfqanıstana mühacirət etmək fikrindəyəm. Dünyanın ən gözəl ölkələridir.

Misal üçün, Taliban Əfqanıstanda hakimiyyətə ikinci dəfə möhtəşəm qayıdışını ilk növbədə hansı əməli addımlarla, islahatlarla yaddaşlara yazdırdı? Ay sağ ol: qadınları islah etməklə. Onlara oxumaq-yazmağı, üzlərini bəzəməyi, işləməyi qadağan ediblər. Zənən xeylağı evdə oturub kişiyə xidmət göstərməlidir. Yoxsa bəzi ölkələrdə qadınlara azadlıq verilib, onlar da ərlərindən şikayətlənib videoya çəkirlər, hətta bəzən sirkə içib intihara cəhd göstərirlər!

Gör nə qədər yoldan azmış hərəkətlərdir. Axırda yazıq ər dözmür, vurur bu arvadı öldürür. Sonra camaat da internetdə donquldaşır: "Polis hara baxırdı? Niyə şikayətə vaxtında münasibət bildirilməyib? Arvad-uşaq və ana komitəsi nə üçün vəzifəsinin öhdəsindən gəlmir?"

Təsəvvür elə. Həyasızlıq baş alıb gedir. Nə yaxşı bizim ölkəmizdə belə mənfi hallara təsadüf olunmur. Bizdə, yeri gəlmişkən, heç vaxt təsadüf olunmur. Nə olunursa, zəruri olunur. Təsadüf Almaniyada, Amerikada - inkişaf etməkdə olan ölkələrdə olur.

Şair məhz bu vəziyyəti hələ 100 il qabaq əsərlərində qeyd etmişdir, ancaq medal almağa taleyi imkan vermədi, vərəmləyib öldü:

Vay, vay! Deyəsən bəşər deyil bu!
Bir şəklə uyan təhər deyil bu!
Allahı sevirsən, ər deyil bu!
Ərdodu, qabandı, qoyma, gəldi!
Didarı yamandı, qoyma, gəldi!

Sözgəlişi, ötən nömrələrimizdən birində "Zapı" maşını haqda yazdığım köşə nədənsə oxucular arasında böyük maraq doğurmuşdur. Hələ də çoxsaylı oxucu məktubları almaqdayam. Dəyərli yazarlarımızdan Vüsal Bağırlının məktubundan bir parça: "Zapı haqda o vaxtlar bir tapmaca vardı: O hansı maşındır ki, motoru arxasındadır. (Müəllif tapmacanı bir az epataj formada yazmışdı, məcburən düzəltdim - Z.H.). Başqa bir ünlü şairimizin Zapı haqda şeirində deyilirdi: Zapı, yoxdu dalında qapı. Zapı ümumiyyətlə çox maraqlı avtomobil idi. Özü balaca olsa da gedəndə elə gurultu salırdı, adamın bağrı yarılırdı. Avtomobilin motoru arxada idi deyə, tez-tez qızırdı. Xarab olurdu. Tələbə vaxtı atışıb qrupumuza yüz dollara bir köhnə Zapı almışdıq. Növbə ilə sürürdük. Dənizə-filana gedirdik. Belə..."

Gözəl xatirələrdir, bizimlə bölüşdüyü üçün müəllifə təşəkkür edirəm.

Bu arada qadınlarla bağlı başqa maraqlı, məzmunlu xəbər də almışıq. Saxlayıb 8 martda dərc eləmək istəyirdim, lakin məhərrəmliyə görə məcburam indi verim: "Sevgi evi" qadın və uşaq sığınacağının əməkdaşı Nazxanım Məmmədovaya 2 il həbs verilib. O, sığınacaqdakı balacalara əzab, işgəncə verməkdə suçlanırdı.

Əlbəttə, sevgi evində belə şeylər ola bilməz. Üstəlik əzab verən Nazxanım adlanırsa. Bizim ölkədə əzab və işgəncəyə yer yoxdur. Ona görə də məhkəmə Nazxanım xanımın himayəsində azyaşlı uşaq olmasını nəzərə alaraq cəzanın qüvvəyə minməsini uşağın 14 yaşına çatmaq vaxtınacan təxirə salıbdır. Qəribə hadisədir.

Ona görə də Rasim Balayev...



# Avropalı "revizor"lar sərhəddə yox, erməni səngərlərində... - ifşa

## Mülki missiya üzvünün erməni səngərində durbinlə müşahidə apardığı video yayılıb, Bakı bu qrupun "çarəsiz" üzvlərinə təhlükəsizlik zəmanəti verməyə borclu deyil

**Avropa İttifaqının (Aİ) Ermənistandakı monitorinq missiyası avqustun 15-də Ermənistan-Azərbaycan şərti sərhədində monitorinq zamanı eşidilən atəş səslərinin mənbəyini müəyyən edə bilməyib. "Yeni Müsavat" yazır ki, bu barədə Avropa İttifaqının (Aİ) Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali komissarının mətbuat katibi Peter Stano bildirib. Aİ-nin Ermənistandakı sərhəd missiyasının guya atəşə tutulması haqda yalan xəbəri əvvəl təkzib etməsi, sonra isə erməni səngərinə atəş açılıb "düzəlişi" ətrafında bəzi detallar üzə çıxmaqdadır.**

Yada salaq ki, Ermənistan Müdafiə Nazirliyi Aİ müşahidəçilərinin və onların maşınlarının Azərbaycan ordusunun döyüş mövqelərindən atəşə tutulması ilə bağlı məlumat yaymışdı. Azərbaycan Müdafiə Nazirliyi bu məlumatı dərhal təkzib etdi. Sonradan missiyanın özü də bu xəbərin qeyri-dəqiqliyini təsdiqləyərək heç bir atəş açılmadığını bildirdi.

Lakin baş nazir Nikol Paşinyan hakimiyyətinə yaxın KİV-lər, eləcə də sosial şəbəkələrdə Aİ missiyasının müşahidəçisinin Ermənistan ordusunun döyüş mövqelərinin birində dayanaraq durbinlə müşahidə apardığı video yaydı. Məhz erməni tərəfinin avropalı müşahidəçilərin əvvəlki bəyanatını "zərərsizləşdirmək" üçün yaydığı videoğörüntü maraqlı məqamı üzə çıxardı: belə aydın olur ki, missiya üzvləri birbaşa Ermənistan ordusunun döyüş mövqeyində dayanıblar.

Haqqın.az bununla bağlı yazısında haqlı suallarla çıxış edib. "Aİ-dən olan, döyüş mövqeyində dayanan "mülki" şəxsin yaralanmasına kim cavabdeh olacaq? Təbii ki, Ermənistan tərəfi və AB missiyası. Bəs Ermənistanın birtərəfli təşəbbüsü ilə regionda olan avropalı müşahidəçilər birbaşa döyüş meydanında nəyə əsaslanaraq dayanırlar? Onlar öz missiyasını daha təhlükəsiz məsafədə yerinə yetirməli deyilmi?" deyə, yazıda bildirilir.

Əvvəllər belə bir təcrübə var idi ki, atəşkəs rejiminə nəzarət etmək üçün Qarabağ münaqişəsi zonasında təmas xətti boyunca hansı müşahidəçilər götürülürdü. Söhbət ATƏT sədrinin xüsusi nümayəndəsi Anjey Kaspşik və onun səhra köməkçilərinin missiyasından gedir. Lakin bu missiya ATƏT-in mandatına əsaslanırdı və hər iki tərəfin razılığı ilə müşahidələr aparırdı. Hazırda Avropa İttifaqının Ermənistandakı sərhəd missiyası Azərbaycanla razılaşdırılmayıb və buna görə də Bakı bu qrupun "çarəsiz" üzvlərinə təhlükəsizlik zəmanəti verməyə borclu deyil. Daha əvvəl Avropa missiyası bəyan etmişdi ki, sərhəddə növbəti monitorinqdən əvvəl Azərbaycan tərəfi məlumatlandırılır. Bununla belə, Bakıda kiminsə döyüş mövqelərində olan Avropa qrupunun üzvlərinə mütləq təhlükəsizlik vəd edəcəyi şübhəli görünür. Avropalı "sərhəd revizorları" erməni səngərlərində görünməsi özünüifşa ilə bərabər bir daha bu missiyanın gerçək fəaliyyəti haqda suallar doğurur. Aİ-nin "sərhəd müşahidəçiləri" niyə erməni səngərlərində oturub? Bu fakt Aİ missiyasının ifşasını göstərmirmi?

Hərbi ekspert Ramil Məmmədli "Yeni Müsavat"a maraqlı detalları açıqlayarkən qeyd etdi ki, döyüş ərazisində olan istənilən mülki şəxs hədəfdir. Hərbi analitik bildirdi ki, həmin adamın üzərində xüsusi geyim olmalıdır və açıq ərazidə qalmalıdır ki, hədəfə tuş gəlməsin. "Onun media nümayəndəsi, yaxud hansısa mülki şəxs olduğu bilinməlidir. Heç bir halda döyüşçünün yanında dayana bilməz. Sadəcə, son bir il ərzində Avropa İttifaqının Ermənistana göndərdiyi monitorinq missiyası NATO-nun hərbi və təhlükəsizlik strukturlarının nümayəndələrindən ibarətdir. Onlar faktiki olaraq, ərazidə öz strukturlarının maraqlarına uyğun şəkildə kəşfiyyat xarakterli fəaliyyət göstərirlər. Belə olmasaydı, həm Türkiyə, həm İranla həmsərhəd olan ərazilərdə müşahidələr aparmazdılar, eyni zamanda, Azərbaycanla sərhəddə də monitorinq adı altında bu işləri həyata keçirməzdilər", deyə R.Məmmədli vurğuladı. O, avropalı müşahidəçilərin fəaliyyətini məhz belə qiymətləndirdi: "Onların tərcümeyi-halına baxanda da belə xarakterizə etmək olar. O baxımdan Azərbaycan Ordusunun erməni təxribatına cavab olaraq atəş açması nəticəsində döyüş səngərində qalan istənilən şəxs hədəfə çevrilir. Bunun belə təqdim olunması isə Azərbaycana təzyiq vasitəsidir. Qərb növbəti dəfə ölkəmizə qarşı təzyiq rıçaqlarını işə salıb. Faktiki olaraq, Fransa jandarmasında, Almaniya daxili qoşunlarında xidmət keçmiş şəxslər Ermənistanla sərhəddə monitorinq aparırlar".

Hüquq müdafiəçisi Xəzər Teyyublu Paşinyana yaxın media resurslarında yayılan videodan istifadə etməyin tərəfdarıdır. Onun fikrincə, məsələ beynəlxalq müstəvidə qaldırılmalı, Avropa İttifaqının nəzərinə çatdırılmalıdır. "Buna təhrikedici təxribat demək olar. Mülki missiyanın hansı ərazilərdə patrul xidməti həyata keçirmələri ilə bağlı konkret istiqamətlər var. Bu ərazilərə döyüş mövqeləri daxil edilə bilməz. Əgər mülki müşahidə missiyasıdırsa, onun durbinlə səngərdə dayanıb ərazilərə baxması qaydaların pozulmasıdır. Avropa İttifaqının özünün bununla bağlı konkret nizamnaməsi və təlimatları olmalıdır. Digər tərəfdən isə bu faktın yayılması missiyanın yarımhərbi olduğunu nümayiş etdirir. Ermənistan tərəfi ümid edir ki, açılan atəşdən bir avropalı yaralansın və Qərb Bakıya təzyiq etməyə başlasın. Lakin onların bu hiyləsi də keçərli olmayacaq".

Hüquq müdafiəçisinin sözlərinə görə, Azərbaycan öz ərazisində bu missiyanın yerləşməsinə rədd cavabı verib, qarşı tərəfin səngərində isə kimin yerləşməsindən asılı olmayaraq, təxribata cavab verildikdə onun vurulması ehtimalı yüksəkdir: "Sabah erməni atəşkəsi pozacaq, biz cavab verəcəyik, səngərə hansısa müşahidəçini, yaxud jurnalisti, diplomatı qoyacaq, sonra deyəcək ki, Azərbaycan sivil şəxsi vurdu. Təbii ki, oyundur, avropalıları da alət edə bilirlər. Əslində Ermənistanda olan həmin monitorinq qrupu hesabat yaymalıdır və durbinlə baxanda görməlidirlər ki, ilk atəş açan tərəf hansıdır, sərhəddə gərginliyi artıran kimdir..."

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023

# Yeni müharibə həvəsində olanlara sual: "Nəynən, Aşot..?"

## Görünən budur ki, bəzi erməni liderlər və onların tör-töküntüləri ordularının ağır vəziyyətinə, xalqın heç bir müqavimət gücünün olmamasına baxmayaraq, mənasız xəyallar peşindədir

**Ermənilər BMT Təhlükəsizlik Şurasının son iclasından sonra depressiyaya düşüblər. Artıq siyasətçisindən tutmuş, sıravisinə qədər hamısı xəyallarla yaşayır, həm də vəziyyətdən çıxmaq üçün nağıllar uydururlar. Bu kontekstdə yenidən Ermənistanı "Qarabağın müstəqilliyini tanımaq" çağırışları səslənir.**

Məsələn, politoloq Stepan Həsən-Cəlalyan da Ermənistanı Qarabağın "müstəqilliyi"ni dərhal tanımağa çağırıb.

"Bunun ardından Ermənistan Qarabağla dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalamalıdır. Əgər belə olarsa, Ermənistan Qarabağla de-yure bir-birlərinin qarşısında qarşılıqlı öhdəliklər götürəcək. Xüsusən də, Qarabağa qarşı təcavüz olarsa, Ermənistan onlara hərbi dəstək vermək hüququna malik olacaq. İkincisi, Ermənistan artıq Qarabağın əvəzinə danışıqlar apara bilməyəcək. Yəni Qarabağ özü tərəf olacaq", deyə o sərsəmləyib.

O deyib ki, Ermənistan və Qarabağ separatçıları Azərbaycana qarşı hərbi gücdən istifadə etməlidir. "Biz qısa zamanda Fərruxu, Daşbaşı yüksəkliyini, Hadrutu və digər əraziləri geri qaytarmalıyıq. Paralel olaraq, Zabux və digər məntəqələr də hərbi yolla Azərbaycanın əlindən alınmalı və Laçın dəhlizi ilə avtomobillərin sərbəst hərəkəti təmin edilməlidir".

Ermənistan mətbuatı məğlub ölkənin dağınıq ordusunda baş verən son prosesləri gündəmə gətirib. Xüsusilə, erməni mediasının diqqətində Müdafiə Nazirliyində aparılan islahatlar fonunda həyata keçirilən sertifikatlaşdırma prosesidir. "Hraparak" qəzeti yazır ki, bu, orduda təşvişə səbəb olub. Bildirilir ki, orduda qeyri-sağlam ab-hava yaradan bu proses peşəkar kadr itkisi ilə nəticələnə bilər. Səbəb isə attestasiyada hərbçinin nə döyüş yolunun, nə yaşının, nə də peşəkarlığı faktının rol oynamasıdır.

"Sertifikatlaşdırma iki hissədən ibarətdir: birinci nəzəridir, peşəkar testlərdən ibarətdir. İkincisi praktiki tapşırıqlardır və sıra təlimi hazırlığı ilə bağlıdır ki, bundan da kimi yaşına görə, kimi də döyüş yaralarına görə keçə bilmir. Nəticədə onlar attestasiyadan kəsilir, real əməkhaqqı isə aşağı həddə qalır ki, bu da inflyasiya şəraitində yaşamağı mümkünsüz edir. Məlumata görə, bu qeyri-bərabər və qeyri-sağlam mühitdə bəziləri artıq xidmətdən istefa veriblər, bəziləri də getmək haqqında düşünürlər. Bu isə ordu üçün ağır nəticələrə səbəb ola bilər", - deyə qəzet yazır.

Beləliklə, görünən budur ki, bəzi erməni liderlər və onların tör-töküntüləri ordularının ağır vəziyyətinə, xalqın heç bir müqavimət gücünün olmamasına baxmayaraq, mənasız xəyallar peşindədir.

Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov qeyd etdi ki, ermənilərin bütün həyatı yalan üzərində qurulub: "Ermənilərin oynadıqları çirkin oyunlar onların sonunu yaxınlaşdırır. Onlar tarixdə bir millət kimi formalaşa bilmədilər. Uzun illər çox çalışdılar ki, özlərinə böyük əraziləri olan bir dövlət qursunlar, lakin bunu seçdikləri əyri yollarla edə bilmədilər. Bu gün isə vaxtı ilə, min bir yolla, rusların əli ilə qurduqları qondarma dövləti də itirmək təhlükəsi ilə üzləşibilər. Belə bir durumda az-çox ağlı başında olan ermənilər Ermənistan deyilən dövlətin hara sürükləndiyinin fərqini anlayıb, bu ölkəni kütləvi şəkildə tərk edirlər. Onlar gələcək nəsillərinin öz qonşuları ilə davamlı münaqişə yaradıb, qan tökən bir dövlətin ərazisində yaşamasını istəmirlər. Son zamanlar Ermənistanda bu reallıqları dərk edənlərin sayı getdikcə çoxalır və onlar birinci imkanda ölkəni tərk edirlər. Bəzi qeyri-rəsmi məlumatlara görə indi Ermənistanda qalan əhalinin sayı bir milyondan bir qədər artıqdır".

Sabiq nazir ermənilərin vaxtı ilə etdikləri çağırışların artıq reallaşmaq üzrə olduğunu söylədi: "Bu gün ermənilər böyük milli stress yaşayırlar. Onların otuz illik Qarabağ xəyalları puç oldu. Anlaşılan odur ki, ermənilərin bu illər ərzində "Qarabağı uduzmaq Ermənistanın sonu deməkdir" çağırışları tam doğru bir çağırış imiş. Vaxtı ilə bizlər də belə çağırışları ermənilərin sıradan bir hay-küyü kimi dəyərləndiririk. İndi aydın olur ki, onlar öz həqiqətlərini hamıdan yaxşı biliblər.



Tarixdə hərbi-siyasi münaqişəni uduzan ölkələr həmişə məğlubiyyətin sonuna yaxın blef ediblər. Ermənilər isə blef etməkdə mahir ustadırlar. İndi onlar hər şeylərini uduzduqlarını yaxşı anlasalar da, ağlını itirmişlər kimi, revanşdan danışırlar. Hansı hərbi-siyasi imkanlarla bu revanşı edəcəklər?

Çox təəssüf ki, Azərbaycan hökumətinin bütün addımlarında "yanlış axtaran" sapı özümüzdən olan bir qrup şəxslər diplomatiyamızın bu qələbəsində də "əmma" axtarışındadırlar. Boş danışıqlardan başqa əlləri heç nəyə çatmayan bu yazıqlar indi də beynəlxalq siyasət meydanında Azərbaycan diplomatiyasının növbəti qələbəsinin ömrünün uzun olmayacağını "əsaslandırmaq üçün" canfəşanlıq edirlər. Bu biçarələr deyirlər ki, BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılan məsələ ilə bağlı ermənilərin xeyrinə hər hansı bir sənəd qəbul olunmasa da, gələcəkdə - Rusiya BMT Təhlükəsizlik Şurasında üzvlükdən kənarlaşdırıldıqdan sonra, bu məsələ yenidən gündəmə gətiriləcək və ermənilər bu dəfə istədiklərinə nail ola biləcəklər. Sapı özümüzdən olanlar, ermənilərin bu məsələdə nə qədər "uzaqgörən" olduğunu xüsusi vurğulayır və onların gələcəkdə bu məsələ ilə bağlı uğur qazanacağını proqnoz edirlər. Bu məsələdə Rusiya deyil, bütün dünya Azərbaycanın yanındaydı və BMT Təhlükəsizlik Şurasının üzvlərinin böyük əksəriyyətinin Azərbaycan həqiqətlərinə səs verəcəyi öncədən hamıya məlum idi".

Deputat Bəhruz Məhərrəmovun fikrincə, zaman Azərbaycanın xeyrinə, Ermənistanın isə ziyanına işləyir: "Ermənistanın hərbi-siyasi rəhbərliyi də, hay cəmiyyəti də yaxşı başa düşür ki, "humanitar fəlakət" şousu, Ermənistanın havadarları tərəfindən çox ciddi və şəbəkələşmiş dəstəyə rəğmən fiaskoya uğramaqdadır. BMT Təhlükəsizlik Şurasının gözləntiləri doğrultmaması bu reallığı bir daha üzə çıxardı ki, bu da İrəvanı hərbi təxribatlara sövq edir. Əslində Ermənistan müharibədə də bir şansının olmadığını başa düşür, lakin müharibəyə məzlum tərəf kimi tanınmaq üçün fürsət kimi baxır.

Lakin cənab İlham Əliyev Azərbaycan ətrafında elə geosiyasi situasiya formalaşdırıb ki, zaman Ermənistanın əleyhinə işləyir. Bakı özü isə bütün ssenarilərə hazırdır, o cümlədən müharibə ehtimalına. Dövlət başçısı özü də açıq mətnlə dəfələrlə bildirib ki, mümkün revanş cəhdi və müharibə ssenarisi Ermənistan üçün son olacaq.

O ki qaldı siyasi manipulyasiyalara, bu qəbildən, Ermənistanın guya Qarabağın "müstəqilliyini" tanıması, daha sonra hər iki rejimin müttəfiqlik əlaqələrinə, bu, sadəcə, boş xülyalardır.

O ki qaldı Ermənistanın Qarabağ separatçıları ilə Azərbaycana qarşı "güclərini birləşdirməsinə", guya 30 il ərzində Azərbaycanla müharibə edən separatçılar idimi? Azərbaycan Ermənistanla, onun havadarları ilə döyüşüb, açıq müharibədə böyük qələbə qazanıb. Separatçılar isə Ermənistan ordusunun tərkib hisssəsi kimi döyüşlərdə iştirak edib. Ermənistanın fərari ordusunun qalıqları, azı 10 min nəfər hərbçi bu gün də Qarabağdadır.

Yeni hərbi ritorikanı yüksəltməklə, sürətlə silahlanmaqla, yaxud siyasi maipulyasiyalarla Ermənistanın nəyəsə nail olması mümkün deyil. Lakin görünən odur ki, İrəvan reallığı qəbul etmək istəmir və yeni gərginlik arzusundadır. Əlbəttə, biz bunu arzu etmirik, lakin istənilən təcavüz aktı qarşısında da cavabsız dayanmaq niyyətimiz yoxdur. Azərbaycanın həm gücün hüququ, həm də hüququn gücü ilə bəri başdan qalibiyyəti şübhə doğurmur".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ermənilər hərbi daşımalarında təcili yardım maşınlarından istifadə edirlər

**Avqustun 18-i saat 10:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, saat 11:55-dən 12:15-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocavənd və Füzuli rayonları istiqamətlərində yerləşən mövqelərini gücləndirmək məqsədilə yerdəyişmə etməyə cəhd göstəriblər.

Qanunsuz yerdəyişmənin qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən zəruri tədbirlər görülüb.

Bundan başqa, avqustun 18-i səhər saatlarında Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinə məxsus döyüş maşınının müşayiəti ilə Qarabağ iqtisadi rayonunda qeyri-qanuni erməni silahlı birləşmələri və Ermənistan silahlı qüvvələrinin qalıqlarının Xankəndi-Qaybalı-Dükanlar-Xəlfəli marşrutu ilə döyüş mövqelərini gücləndirməsi müşahidə edilib.

Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, texniki müşahidə vasitələrilə əldə edilən görüntülərdə qanunsuz daşımaların həyata keçirilməsi üçün içərisi silah, döyüş sursatı, eləcə də piyada və tank əleyhinə minalarla dolu təcili tibbi yardım maşınının da kolonda hərəkəti qeydə alınıb.

Nazirlikdən o da qeyd olunub ki, ermənilərin bundan əvvəl hava məkanımızdan keçən mülki təyyarələrin uçuşlarının təhlükəsizliyinə ciddi təhdid yaradan REM vasitələri quraşdırmaqda təcili tibbi yardım maşınlarından hərbi məqsədlər üçün istifadə etdiyi də tərəfimizdən qeydə alınmışdı.

"Ermənistanın qeyri-qanuni silahlı birləşmələri Azərbaycanın suveren ərazisinə qədər tez tam tərk edərlərsə, sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqların tezliklə başa çatması şansı da bir o qədər çox olar".

Bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Çinə səfəri zamanı "Feniks TV"yə müsahibəsində deyib.

"Biz Ermənistanın üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirməsini səbirsizliklə gözləyirik. İlk növbədə, onlar öz silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisindən çıxarılmasını başa çatdırmalıdırlar. Çünki hətta bu gün - atəşkəs haqqında sazişin imzalanmasından iki il yarım keçdiyi dövrdə də Ermənistan silahlı qüvvələrinin bölmələrinin on min nəfərlik şəxsi heyəti hələ də qeyri-qanuni olaraq Azərbaycanın Qarabağ bölgəsindədir", - E.Əmirbəyov bildirib.

Prezidentin nümayəndəsi qeyd edib ki, Azərbaycan ərazilərinin 30 il işğal altında qalmasına baxmayaraq, Ermənistanla düşmənçilik səhifəsini çevirməyə hazırdır:

"2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsi başa çatıb. Azərbaycan uzun müddət işğal altında qalmış torpaqlarını azad edib. Biz Ermənistana sülh gündəliyi təklif etmişik. Hesab edirəm ki, indi - ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdikdən sonra düşmənçilik səhifəsini çevirmək və Ermənistanla mehriban qonşuluq əlaqələri, sülh münasibətləri qurmağa çalışmaq şansımız var. Çünki biz bu bölgənin daha yaxşı gələcəyə layiq olduğunu düşünürük".

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023

# Ermənistan indi də Ukraynanı minalayır

## Bəs, indi beynəlxalq birlik İrəvanın bu cinayətlərinə reaksiya verəcəkmi?

**Ukraynanın işğaldan azad edilmiş ərazilərində Ermənistan istehsalı olan piyada əleyhinə minalar aşkar edilib. Bu barədə "İnformasiya müqaviməti" qrupunun hərbi-siyasi şərhçisi Aleksandr Kovalenko öz "Telegram" kanalında məlumat verib.**



"Ukraynanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi zamanı bəzən gözlənilməyən nümunələr qarşımıza çıxa bilir. Məsələn, ərazidən tapılan "E-001" piyada əleyhinə minasının fotosu dərc olunub ki, bu mina Ermənistanda istehsal olunur. Bunun erməni minası olduğuna şübhə yoxdur, mən bu minaları şəxsən Qarabağda görmüşəm", - deyə o bildirib.

"Qeyd edim ki, əvvəllər Ermənistanın Rusiya ordusuna belə minalar verməsi barədə məlumat daxil olmayıb. Amma mən hələlik, nəticələr çıxarmaq üçün tələsmək istəməzdim. İndiki mərhələdə bu minalardan nə qədərinin Rusiya ordusu tərəfindən istifadə edildiyini və ümumiyyətlə, bu minaların onların əlinə necə düşdüyünü söyləmək çətindir. Tədarük şəklində və ya qaçaqmalçılıq yolu ilə də ola bilər", - deyə Kovalenko qeyd edib.

Onun sözlərinə görə, müvəqqəti olaraq işğal edilmiş Krımda erməni diasporunun nümayəndələri işğalçılarla sıx əməkdaşlıq edirlər. "Krım Könüllülər Birliyinin rəhbəri Armen (Samvel) Martoyan 44 günlük müharibə zamanı hətta Qarabağı ziyarət edib və döyüşə könüllülər göndərib. Gizli təchizat kanalı yaradılmış ola bilərdi", - deyə Aleksandr Kovalenko vurğulayıb.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsindən sonra 303 azərbaycanlı mina qurbanına çevrilib. 10 noyabr 2020-ci il bəyanatının bütün hərbi fəaliyyətlərin dayandırılmasına dair müddəasına və digər beynəlxalq öhdəliklərə zidd olaraq, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin intensiv minalanması halları, Azərbaycan ərazilərinə 2021-ci il istehsalı olan minalar gətirərək basdırması, beynəlxalq ictimaiyyətin Ermənistanın məqsədli şəkildə mina təhdidinə göz yumması nəticəsində 2020-ci ilin noyabr ayından bəri iki nəfər jurnalist daxil 303 nəfər azərbaycanlı mina qurbanına çevrilib. Ermənistan uzun illərdir ki, bir neçə konvensiyanın tələblərinə zidd olaraq mina istehsalı ilə məşğul olur. Hələ sovet dövründə Ermənistanda iki mina zavodu fəaliyyət göstərirdi. Sonrakı dövrdə, yeni Vətən müharibəsi zamanı hər iki zavodun istehsal gücü artırılıb. Həmin zavodlarda Ermənistan müdafiə nazirinin nəzarəti ilə minaların istehsalı artdı və həmin minalar Azərbaycan ərazilərinə daşınıb.

İndi isə faktlarla sübut olunur ki, Ermənistan həm də Ukrayna ərazilərinin minalanmasında da aktiv rol alıb. Bəs, indi beynəlxalq birlik Ermənistanın bu cinayətlərinə reaksiya verəcəkmi? Ermənistana silah satışında hansısa yasaqlar tətbiq edilə bilərmi?

AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov "Yeni Müsavat"a bildirdi ki, buna görə beynəlxalq birlik ermənilərə heç nə edəsi deyil: "Ermənilər o beynəlxalq birlik "kimdirsə", nədirsə, ona yaman xoş gəlirlər. Ukraynada erməni minaları məsələsinə kiminsə ciddi reaksiya verəcəyini düşünmürəm. Bilirsinizmi niyə? Ukraynada ayrı-ayrı şəxslər bunda maraqlı olsa da, dövlət maraqlı deyil. Ukraynada artıq anlayırlar ki, onlar Qərbin buferidir. Rusiyanı da məşğul etmək üçün "primanka"dırlar. Amma Ukrayna da savaşı bitirə bilmir. Çünki elə bir oyunun içindədir ki, sükan əlində deyildir. Ukrayna Ermənistanla bağlı da belə ədalət cəbhəsində yer almağa çalışsa da, bu işlə məşğul olmağa zamanı yoxdur. Ona görə bu beynəlxalq birliyin başını buraxmaq lazımdır. Bizim kimi coğrafi ərazisi kiçik, amma resursları güclü olan dövlətə regional dövlətlərlə normal münasibət lazımdır. Bir də satış bazarlarına çıxışdakı tərəfdaşlarla işləmək lazımdır. Ermənistanı qətiyyən güclənməyə qoymaq olmaz! Bu təklifi həmişə edirəm. İndi də deyirəm. Ermənistan silahsızlaşdırılmalıdır. Ona ancaq polis qüvvəsi saxlamaq olar. Ordusu olmamalıdır. Hərbi və təhlükəsizlik strateqlərimiz düşünsün. Hədəf: Ermənistanın demilitarizasiyası! Əslində, özbaşına olsa, Paşinyan da buna razı olar. Amma orada dərin erməni klanları var".

Hərbi ekspert Emin Həsənli bu xəbər inandırıcı sayır: "Bilirsiniz ki, Rusiya hər zaman Ermənistanı dəstəkləyib. Bir milyarddan artıq ermənilərə silah verdiyi hələ Yeltsin dönəmində sübut olunmuşdu. Kreml daim Ermənistanı silahlandırıb. SSRİ-nin ən böyük mina zavodlarından biri də Ermənistanda olub. Heç də təsadüfi deyil ki, Qarabağ ərazisini başdan-başa minalayıblar. Bu da çox təəssüf hissi doğurur. Ukraynada Ermənistan istehsallı minaların tapılması inandırıcıdır. Çünki İran ruslara pilotsuz uçuş aparatları verir, Ermənistan da nə mümkündürsə, dəstək verir. Ermənistan hər zaman Rusiyanın forpostudur, onun yanındadır. Rəsmi İrəvana Fransa, Rusiya, Amerika və İranın təsiri çox güclüdür. Ermənilər daim iki stolda əyləşiblər, yəni Amerika və Rusiyanın yanında olublar. Hazırda Rusiya ilə Ukraynanın timsalında Qərb döyüşür. Qərbin Ukraynaya verdiyi dəstək olmasa, Ukrayna bu savaşı apara bilməzdi. Doğrudur, Ukrayna xalqı fədakar, qəhrəmandır. Amma dəstəklər olmasa, bu qədər dirənə də bilməz. Ermənistan hazırda vassal siyasəti həyata keçirir. Üzdə oradakı iqtidar Amerikaya yaxın görünə bilər, amma bu da mübahisəlidir. Onun üçün deyirəm ki, bu yayılan xəbərlər doğru ola bilər".

Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov da fərqli düşünmür. Onun sözlərinə görə, Ermənistanın mina terroru bizim üçün yeni tendensiya deyil: "Bu terror dövlətinin mina bəlası Azərbaycana yaxşı tanışdır. Odur ki, Ermənistanın Qarabağda etdiklərini indi Ukraynada təkrarlaması bizim üçün təəccüblü olmamalıdır. Üstəgəl, nəzərə almaq lazımdır ki, vaxtı ilə Azərbaycanda olduğu kimi, indi Ukraynadakı müharibədə də əsas aktor Rusiyadır. Rusiyanın Ermənistanı alət kimi istifadə etməsi də kimsəyə sirr deyil. Bu mənada deyilənlərin həqiqətə uyğun olması tamamilə mümkündür. Əgər indi Ermənistana lazımi beynəlxalq reaksiya göstərilməsə, gələcəkdə oxşar mina terroru yenə təkrarlana bilər. Odur ki, dünya ictimaiyyəti, o cümlədən beynəlxalq təşkilatlar gözünü açmalı, Ermənistanı cəzalandırmalı, sanksiya tətbiq etməlidir. Qeyd etmək yerinə düşər ki, Qərbin Azərbaycan və Ukrayna həqiqətlərinə münasibəti birmənalı olmadı. Məhz bununla bağlıdır ki, beynəlxalq ictimaiyyət zamanında Ermənistanın "qulağını burmadı". Ona görə İrəvan daha da "şıltaq" davranmağı bacardı. Heç olmasa indi lazımi addımlar atılmalıdır. Əks halda, daha pis olacaq...".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



## Minaaxtaran itlərin sayı artırılır

**Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) əməliyyatlara cəlb edilən itlərin sayını artırır.**

Bu barədə ANAMA-dan bildirilib.

Qeyd edilib ki, Marşal İrsi İnstitutu (Marshall Legacy Institute, MLI) ilə ANAMA arasında imzalanan Anlaşma Memorandumuna əsasən daha 6 baş Malinua cinsli minaaxtaran it (MAİ) Agentliyə təhvil verilib.

Xüsusi hazırlıq keçmiş minaaxtaran itlər Agentliyin Horadiz Regional Mərkəzində müəyyən olunmuş karantin rejimində saxlanıldıqdan sonra, Beynəlxalq Minatəmizləmə Standartlarına (IMAS) əsasən uyğunluğun qiymətləndirilməsi prosesindən keçirilir. Daha sonra müvafiq şəkildə Qarabağ və Şərqi Zəngəzurda icra olunan minatəmizləmə əməliyyatlarına cəlb olunacaq.

Qeyd edək ki, bu ilin fevral və aprel aylarında Agentliyə təhvil verilən minaaxtaran itlər aidiyyəti mərhələlərdən keçərək, işğaldan azad edilmiş ərazilərdə təhlükəsiz mühitin yaradılması istiqamətində öz töhfələrini verir.

## Ukraynada daha bir azərbaycanlı hərbçi həlak oldu

**Ukrayna Silahlı Qüvvələrinin cənub birləşmələrinin azərbaycanlı hərbçisi Əliyev Rafiq Hacıqulu oğu Zaporojye istiqamətində həlak olub.**

"Report"un xəbərinə görə, əslən Azərbaycanın Astara rayonunun Pensər kəndindən olan 1981-ci il təvəllüdlü Ukrayna vətəndaşı R.Əliyev bir müddət əvvəl itkin düşüb. Bu yaxınlarda isə onun meyiti tapılıb.

Hazırda onun nəşi cənub istiqamətində morqların birindədir.

R.Əliyev müharibəyə qədər Ukraynada Luqansk vilayətinin sakini olub.



## Ordumuz müdafiə sistemlərini işə saldı

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən ümumqoşun poliqonunda Hava Hücumundan Müdafiə (HHM) bölmələrində döyüş atışları icra edilib.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Təkmilləşdirilmiş S-125 2TM zenit-raket komplekslərindən aşağı hündürlükdə uçan az sürətli və kiçik ölçülü hava hədəflərinin aşkar edilərək praktiki şəkildə məhv edilməsi üzrə tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Atışların keçirilməsində əsas məqsəd şəxsi heyətin praktiki vərdişlərinin, həmçinin zenit-raket komplekslərinin idarəetmə bacarıqlarının təkmilləşdirilməsi və döyüş qabiliyyətinin daha da yüksəldilməsidir.

**Avqustun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirak edib. Eyni gündə Prezident İlham Əliyevin fərmanı ilə "Dərman vasitələri haqqında" qanuna edilən dəyişikliklər təsdiqlənib. Dəyişikliklərə əsasən, dərman vasitələrinin təqib və izləmə sistemi yaradılacaq və gələn ildən tətbiq ediləcək. Eyni zamanda Tarif Şurası gələn aya kimi dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddini müəyyənləşdirəcək. Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi yalnız reseptdə yazılan miqdarda dərman vasitələrini ölkəyə gətirə biləcəklər. Göründüyü kimi, xeyli yeniliklər var. Bəs bütün bu dəyişikliklər özündə nəyi ehtiva edir? Dərmanların qiymətində, keyfiyyətində bundan sonra fərq olacaqmı?**



# "Qanuna edilən dəyişikliklər vətəndaşların xeyrinədir, çünki... "

## Musa Quliyev: "Dərmanların icbari sığorta tərəfindən ödənilməsini mütləq təmin etməliyik"

Milli Məclisin deputatı, "Dərman vasitələri haqqında" Qanunun İşçi qrupunun rəhbəri Musa Quliyev "Yeni Müsavat"a müsahibəsində bu və digər sualları cavablandırıb.

**- Musa müəllim, həm dərman zavodunun açılışı, həm də dərman vasitələri ilə bağlı qanunvericilkdə edilən dəyişikliklər qiymətlərə təsir edəcəkmi? Uzun zamandır ki, ölkəmizdə dərmanların olduqca baha olmasından narazılıq var...**

- Əlbəttə, Azərbaycanda dərmanların qiyməti kifayət qədər bahadır. İstənilən çeşiddə də vətəndaşların əlçatanlığı baxımından imkanlar geniş deyil. Bütün bunları nəzərə alaraq həm hökumət, həm də Milli Məclis tərəfindən müvafiq addımlar atılır. Sizin də qeyd etdiyini kimi, növbədənkənar sessiyada "Dərman vasitələri haqqında" Qanuna çox ciddi dəyişikliklər edildi. Ölkəyə dərman gətirilməsi xeyli asanlaşdırıldı. Qeydiyyat məsələləri xeyli yüngülləşdirildi. Dərman gətirmə şərtləri də yumşaldıldı. Müxtəlif firmaların dərmanlarının artıq Azərbaycana gətirmək şansı çoxalır. Bu da o deməkdir ki, artıq dərman bazarında kifayət qədər imkanlar genişlənir. Heç şübhəsiz ki, dərmanların həm keyfiyyətinin yüksəlməsi, həm də qiymətlərin aşağı düşməsinin biz şahidi olacağıq. O cümlədən, cənab Prezidentin də iştirakı ilə Pirallahıda yeni dərman zavodunun işə düşməsi və başqa layihələr də var, onlar da yaqin yaxın vaxtlarda icra olunacaq. Bu da imkan verəcək ki, kifayət qədər Azərbaycanın dərman bazarında çeşidlər çoxalsın, həm də qiymətlər aşağı düşsün.

**- Bəs, dərmanların icbari sığorta paketinə əlavə olunması necə nəzərdə tutulurmu?**

- Bəli, bizi düşündürən odur ki, icbari sığorta dördüncü ildir ki, tətbiq edilir. Amma yalnız stasionarda müalicə vaxtı dərman təchizatı sığorta hesabından həyata keçirilir. Amma ambulator müalicənin dərman təchizatı tamamilə vətəndaşın öz üzərindədir, öz hesabınadır. Bu da vətəndaşın büdcəsinə kifayət qədər mənfi təsir göstərir, həm də müəyyən dərmanları axtarmaq, tapmaq, bəzi hallarda isə möhtəkirlik hallarına da rast gəlinir. Aptek və tibb işçisi arasında qeyri-etik də olsa bu sövdələşmədir. Sövdələşmənin də qurbanı vətəndaşlar olur. Ona görə də biz ambulator müalicənin də tam olmasa da, qismən hissəsini icbari sığorta öz üzərinə götürməlidir. Həkimin yazdığı resept əsasında aptekdən icbari sığortanın hesabına vətəndaş dərmanı almaq imkanı əldə etməlidir. Belə olan halda həm dərman möhtəkirliyi olmayacaq, çünki artıq icbari sığorta özü buna nəzarət edəcək. Eyni zamanda, vətəndaşın da dərmana xərclədiyi vəsait öz cibində qalacaq, çünki icbari sığortaya artıq kifayət qədər vəsait ayrılır. Əmək haqlarından 4 faiz tutulur. Eyni zamanda, işləməyən yaxud da xüsusi qrup əlillər, təqaüdçülər var ki, bunlar da Prezidentin tapşırığına əsasən dövlət tərəfindən ödənilir. Hesab edirəm ki, gələcəkdə birinci addımımız bundan ibarət olmalıdır. Ambulator müalicənin də dərman təminatı icbari sığorta tərəfindən ödənilsin. Əlbəttə, ilk etap üçün olduqca böyük vəsait tələb oluna bilər. Amma hər halda müxtəlif xəstəliklər üzrə, yaxud da dərmanların bir hissəsinin icbari sığorta tərəfindən ödənilməsini biz yavaş-yavaş təmin etməliyik. Qardaş Türkiyədə və bir çox ölkələrdə vətəndaş ambulator müalicə xərclərində dərmanların hamısını sığorta hesabına alır.

**- Daha bir dəyişiklik isə ondan ibarətdir ki, bundan sonra Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi yalnız reseptdə yazılan miqdarda dərmanları ölkəyə gətirə biləcəklər. Bəziləri bunu ölkəyə dərman idxalının qarşısının alınması kimi anlayıb...**

- Əslində, əvvəl də belə idi. Buradakı düzəliş əslində vətəndaşın xeyrinədir. Vətəndaş özü getməyə də bilər. Həmin reseptini hər hansı bir dərman şirkətinə həvalə edə bilər, onun tapşırığına əsasın dərman şirkəti gətirə bilər. Məsələ bunun üzərindədir. Amma vətəndaş reseptdən kənarda olan dərmanı da öz istifadəsi üçün yenə də gətirəcək. Burada heç bir məhdudiyyət yoxdur. Hətta reseptlə olan dərmanı da özü gedibsə, gətirə biləcək. Amma burada müəyyən hədd məsələsi var. O qanunvericiliklə tənzimlənmir. Yəni vətəndaş deyə bilər ki, bir illik ehtiyacımı gətirirəm, gömrük, yaxud vergi işçisi deyə bilər ki, bunu satmaq üçün gətirir. Burada bir norma müəyyənləşməyib. Amma hər halda hesab edirəm ki, qanundakı bu dəyişiklik vətəndaşın vəziyyətini bir az yüngülləşdirəcək. Vətəndaş özü getməyə də bilər. Resepti dərman şirkətinə verə bilər, o da sifariş əsasında dərmanı gətirə bilər. Amma yenə deyirəm, boşluqlar var. Bəzən olur ki, xaricdən lazım olan dərmanları gətirdikdə saxlayırlar ki, bu dərmanlar çoxdur. İzah etmişik, sonra aradan qalxıb. Hazırda vətəndaşlar dərmanı əsasən Türkiyədən gətirir. Çünki Türkiyənin dərman bazarında həm çeşid çoxdur, həm keyfiyyət yüksəkdir, həm də qiymət bizimlə müqayisədə kifayət qədər əlçatandır. Bunu da tənzimləmək olar. Vaxtında biz təklif etdik ki, Türkiyə ilə Azərbaycanın dərman siyasətində də ortaq məxrəcə gələ bilərik, əməkdaşlıq edə bilərik. Bizim bu təklifimiz o vaxt qəbul olunmadı, amma hesab edirəm ki, yenə də bu məsələyə qayıtmaq olar. Çünki Türkiyə ilə Azərbaycan qardaş dövlətdir. Həm də Türkiyənin xarici ölkələrin tanınmış firmalarından dərman almaq imkanı bizimki ilə eyni deyil. 80 milyonluq bir ölkə üçün sifariş verirlər. Qiyməti xeyli aşağı ola bilir. Bir də var, Azərbaycan 10 milyonluq əhali üçün sifariş edə. Böyük dərman şirkətləri daha çox sifariş olduğu halda böyük endirimlər də edirlər. Bunlar detallardır. Onu deyim ki, sonuncu dəyişikliklər kifayət qədər müsbət dəyişikliklərdir. Ölkədə dərman çeşidinin artmasına, qiymətlərin tənzimlənməsinə, optimallaşdırılmasına gətirib çıxaracaq. Əvvəldə qeyd etdiyim kimi, əsas bizim hədəfimiz sığorta üzərindən bu işləri başlamaq olmalıdır ki, vətəndaşın dərmana olan xərclərinin böyük bir hissəsini sığorta qarşılaya bilsin.

**- Gələn ildən dərman vasitələrinin təqib və izləmə sistemi də yaradılacaq, bu da dəyişikliklərdə öz əksini tapıb. Burada dərmanların qiymətlərinə nəzarət üçün nəzərdə tutulub, yoxsa?**

- Bu çox vacib məsələdir. Azərbaycana hansı mal nə qədər gəlir, tələbat nə qədərdir. Hansı aptekdə var, hansında yoxdur. Vətəndaş haradan gedib birbaşa tapa bilər. Hətta bəzən həkimin, xəstəxananın kompüterinə baza yerləşdirilə bilər, birbaşa göstərilə bilər ki, filan aptekə göndərildi, gedib almaq olar. Dərman təminatının sığorta ilə ödənilməsi üçün keçid mərhələsində çox vacib məsələdir. Bu həm dərman gətirən şirkətlərin işinə yarıyacaq, həm vətəndaşların, həm də tibb işçilərinin.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Səyyar qril satanları hansı cəza gözləyir?



**"Azərbaycanda səyyar qril satışı ümumiyyətlə qadağandır".**

Bunu bizim.media-nın sorğusuna cavab olaraq, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin rəsmisi İlkin Kərimov bildirib.

Onun sözlərinə görə, küçə ticarəti birmənali olaraq AQTA-nın səlahiyyətləri xaricindədir:

"Nazirlər Kabinetinin 94 nömrəli qərarında küçədə hansı ərzaq məhsullarının və qeyri-qida məhsullarının satıla biləcəyi göstərilib. Qeyd olunur ki, məsələn, dondurma, alkoqolsuz içkilər, istehsalçı tərəfindən qablaşdırılmış çörək, bulka, qənnadı məmulatları və meyvə-tərəvəz istisnadır, yəni onlar səyyar formada satıla bilər. Digər malların satışı qanunla qadağandır və belə olan halda qril satışına icazə yoxdur. Yəni bu, qanunsuz haldır. Bu hallarla da müvafiq orqanlar mübarizə aparmalıdır".

Bəs səyyar qril satıcılarını hansı cəza gözləyir?

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 454-cü maddəsinə əsasən, qanunsuz küçə ticarəti, yəni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməmiş yerlərdə malların satılmasına və ya işlərin (xidmətlərin) görülməsinə görə inzibati cərimə nəzərdə tutulub.

Eyni zamanda, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli 795 nömrəli Fərmanının 5.53-cü maddəsinə uyğun olaraq, İnzibati Xətalar Məcəlləsinin 454-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə inzibati icraata Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanları baxır.

Qanunsuz küçə ticarəti, yəni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməmiş yerlərdə malların satılmasına və ya işlərin (xidmətlərin) görülməsinə görə səksən manat məbləğində cərimə tətbiq edilir.

YENİ MÜSAVAT
N 145 (8281) 19 avqust 2023

**Azərbaycanda 17 qum-çınqıl, 1 əhəngdaşı və 1 keramika yatağı hərraca çıxarılır. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili Mərkəzi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi tərəfindən sentyabrın 27-də faydalı qazıntı yataqlarının istifadəyə verilməsi üzrə növbəti hərrac keçiriləcək.**

# Gələn ay böyük hərrac var: yataqlara kim "maya" qoyacaq?

## Ekspert: "Tezliklə azad olunan ərazilərdəki yataqların hərraca çıxarılmasına başlayacağıq"



Hərraca Daşkəsəndə "Çovdar" (7 ha), Ağstafada "Yuxarı Salahlı" (22 ha), Tovuzda "Aşağı Zəyəmçay" (2 ha), Şəmkirdə "Aşağı Zəyəmçay" (4 ha), İmişlidə "İmişli" (11 ha), "Bəhrəmtəpə I" (32 ha) və "Bəhrəmtəpə II" (19 ha), Şabranda "Gilgilçayın cənub-qərb cinahı" (18 ha), Siyəzəndə "Gilgilçayın cənub-qərb cinahı" (10 ha) və "Gilgilçay III" (2 ha), Qaxda "Kürmükçay" (18 ha), Zaqatalada "Qaraçay I" (30 ha), Şəkidə "Qaşqaçay" (2 ha), Bakının Qaradağ rayonunda "Şahqaya" (3,7 ha) və "Şonqar" (7 ha), Tərtərdə "Söylən" (0,8 ha), İsmayıllıda "Bilistan II" (3,1 ha), Qəbələdə "Türyançay III" (4 ha) və "Xırxatala" (2 ha) faydalı qazıntı yataqları investorlara təklif olunacaq.

Qeyd edək ki, Azərbaycanda uzun müddətdir tikinti materialları ehtiyatlarından istifadə sahəsində böyük problemlər var. Xüsusilə böyük neft pullarının axınından sonra başlanan tikinti bumu dövründə ölkənin bütün ərazisi boyu daş,qum-çınqıl, gil və sair yataqlardan nizamsız, əksər hallarda ekoloji tələblər çox kobud formada pozularaq istismarı həyata keçirilib. tikinti bumunun mərkəzi olan Bakıya yaxın ərazilərdəki yataqlar sözün həqiqi mənasında vəhşicəsinə talanıb, yüz min hektarlarla sahəyə böyük ekoloji zərər vurulub. Hökumət bu sahəyə 2018-ci ildən sonra yetirməyə başlayıb: qum-çınqıl karxanalarının çay yataqlarında özbaşına fəaliyyətinə görə sel suları körpüləri yuyub aparandan sonra. 2018-ci ildən hökumət bütün ölkə boyu daş, qum-çınqıl və digər tikinti materialları istehsalı üçün zəngin yataqlarda monitorinqlərə başlayıb. İlk olaraq Bakı və ətrafındakı daş karxanalarında yoxlamalar aparıldı, iki il ərzində onların sayı 800-dən 300-dək azaldıldı. Daha sonra qum-çınqıl istehsalı sahəsində vəziyyət araşdırıldı. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqladığı məlumatdan aydın oldu ki, əksər hallarda çay yataqlarından götürülən qum-çınqıl xammalı bərpa prosesini dəfələrlə üstələdiyi üçün istismar dərinliyi nəzərdə tutulan həddini aşır, bu da ciddi ekoloji problemlər yaradır. Nəticədə çayların ətrafında olan strateji infrastruktur (hidrotexniki qurğular, körpü və bəndlərə) real təhlükə yaratmaqla ekzogen geoloji proseslərin (sürüşmə, çökmə və s.) yaranmasına səbəb olur. Qum-çınqıl, o cümlədən əhəngdaş karxanalarının yerləşdiyi ərazilərin təbii landşaftı ciddi olaraq korlanır. Çay vadilərində faydalı qazıntıların sistemsiz şəkildə istismarı nəticəsində əmələ gəlmiş çoxsaylı iri çuxurlar, çökəklər və təpəciklər eybəcər bir mənzərə yaradır. Həmçinin, daş karxanalarında köhnə texnoloji avadanlığın istifadəsi, istismar başa çatmış yataqlarda rekultivasiya işlərinin aparılmaması ciddi ekoloji fəsadlar yaradır.

Beləliklə, hökumət qərara gəldi ki, tikinti materialları istehsalı üçün xammalla zəngin yataqların hərrac yolu ilə istifadəyə verilməsinə başlasın. Bu məqsədlə 2019-cu ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzdində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi yaradıldı. Hərracların təşkili ilə bağlı İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili üzrə Auksion Mərkəzi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi arasında razılaşma əldə olundu. Rəsmi açıqlamada bildirilirdi ki, bu addımın məqsədi bölgələrdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadi mühitin genişləndirilməsi, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasıdır.

İlkin olaraq Ağcabədi, Beyləqan, Goranboy, Göygöl, Qazax, Tovuz rayonlarında yerləşən yataqların hərrac qaydasında istifadəyə verilməsi həyata keçirildi. Qəbul edilmiş qaydalara əsasən yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün digər sənədlərlə yanaşı iddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin surətini; iddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumatı da təqdim etməlidir.

Hərraclara çıxarılan qum-çınqıl yataqlarının dəyəri hər 10 min kubmetr ehtiyatın 1000 manata qiymətləndirilməsi ilə müəyyən olunur. Məsələn, 60 min kubmetr ehtiyatı olan yataq 6 min manata, 100 min kubmetr ehtiyatı olan isə 10 min manata satılır. Əksər hallarda yataqlar elə başlanğıc qiymətə satılır. Nadir hallarda qiymətin artması müşahidə olunur. Məsələn, iyun ayında hərraca çıxarılan 28 yataqdan yalnız biri üzrə hərrac başlanğıc qiymətdən yüksək məbləğə yükunlaşıb - ehtiyatı 160 min kubmetr qiymətləndirilən Quba rayonu Qorxmazoba qum-çınqıl yatağının ilkin qiyməti 16 min manat müəyyən olunsa da, hərracın yekununda "Falcom" MMC-yə 17500 manata satılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Faydalı Qazıntı Ehtiyatlarının Dövlət balansında 15 gips, anhidrit, gəc, 3 keramika xammalı, 2 dolomit, 1 seolit, 3 bentonit gili, 2 kvarsit, 3 mineral boya, 59 mişar daşına yararlı xammal (əhəngdaşı, tuf, qum daşı, travertin), 22 üzlük daşı, 9 tikinti daşı, 76 qum-çınqıl, 17 tikintiqumu, 101 kərpic istehsalı üçün yararlı gil xammalı, 16 sement xammalı, 18 əhəng xammalı yataqlarının ehtiyatları qeydə alınıb.

Hazırda bu yataqların böyük əksəriyyətində istismar işləri həyata keçirilir. Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədr müavini Elçin Məcidovun dediyinə görə, ölkə ərazisində 134 qum-çınqıl yatağı mövcuddur. Bu yataqlar əsasən şimal bölgəsində - Quba, Qusar, Xaçmaz, həmçinin İmişli, Lənkəran, Tərtər rayonunun ərazisində yerləşir.

Onun sözlərinə görə, Agentliyin fəaliyyəti dövründə İmişli, Quba, Tərtər, Bərdə, Mingəçevir, Yevlax, Lənkəran rayonları ərazisindən keçən çay yataqlarında 97 müəssisənin fəaliyyəti dayandırılıb. Onlardan 49-u Quba, 21-i İmişli, 9-u Tərtər rayonu ərazisində yerləşir.

Bu ilin yanvarında ümumilikdə respublika üzdə 51 qum-çınqıl yatağında 128 istismarçının icazə sənədi qüvvədə olub. Bunlardan 46-na Agentlik tərəfindən 2021-2022 ci illərdə hərrac vasitəsilə icazə sənədi verilib.

E.Məcidov bildirir ki, faydalı qazıntı yataqlarının hərrac yolu ilə istifadəyə verilməsində əsas məqsəd azad rəqabət mühitinin yaradılması, dövlətin qoyduğu tələblərə cavab verən fiziki və hüquqi şəxslərin yataqlarda işləməsinin təmin edilməsidir: "İyul ayında cənab Prezident İlham Əliyevin fərmanı ilə "Yerin təkindən istifadənin dövlət tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanında dəyişiklik edilib. Dəyişikliklər faydalı qazıntı yataqlarının istifadəyə verilməsi üzrə hərracların keçirilməsi prosesinin təkmilləşdirilməsi xarakteri daşıyır".

Agentlik rəsmisinin verdiyi məlumata görə, 2021-ci ildə 84 lot, 2022-ci ildə 92 yataq sahəsi, 2023-cü ilin ötən dövründə 49 lot üzrə hərrac keçirilib. Sentyabrda isə 58 lot üzrə daha bir hərrac keçiriləcək. E.Məcidov qeyd edir ki, hərraca qatılan şirkətlər qarşısında ciddi ekoloji tələblər qoyulur: "İstifadə müddətində həmin tələblərə əməl olunması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müxtəlif strukturları tərəfindən monitorinqlər təşkil edilir. Məsələn, bizdə əsas diqqət qum-çınqıl karxanaları ilə bağlı çay yataqlarının bərpaolunma dərinliyi tələbinə əməl olunmasına yönəldilir. Elə ərazilər var ki, çay yatağının bərpa olunma dərinliyi 2 metr, eləsi var 1,5-1 metrdir. Şirkətlər bu amili mütləq nəzərə almalıdılar ki, çay yatağı vaxtında bərpa oluna bilsin. Daş karxanaları ilə bağlı bizim əsas tələbimiz istehsalın ekoloji normalara uyğunluğunu təmin edən müasir avadanlıqlardan istifadəyə, həmçinin tullantıların normalara uyğun anbarlaşdırılmasınadır. İndiyədək hərrac yolu ilə istifadəyə verilən sahələrdə bu tələblərin pozulması halları aşkarlanmayıb".

Agentlik rəsmisi onu da bildirir ki, faydalı qazıntı yataqlarından istifadəyə görə ödənilən pullar ETSN nəzdində fəaliyyət göstərən Mineral Xammal Bazasının Bərpası üzrə Dövlət Fonduna ödənilir. Fond ölkə ərazisində yeni faydalı qazıntı yataqlarının kəşfiyyatı, aşkarlanması ilə məşğuldur.

Məlumdur ki, işğaldan azad olunan ərazilərdə sürətli tikinti-bərpa işləri həyata keçirilir. Bu işlər böyük həcmdə tikinti materiallarına tələb yaradır. Bu baxımdan, azad olunan ərazilərdəki faydalı yataqların mümkün qədər tez istismarına başlanması zəruridir: "İqtisadiyyat Nazirliyi Ağdam rayonu ərazisində Şahbulaq mişar daşı yatağını istifadəyə verib. Biz də Dövlətyarlı yatağının hərraca çıxarılmasına hazırlaşırıq. Orada minatəmizləmə prosesi yekunlaşıb, zəruri razılaşmalar əldə olunub. İlin sonunadək yəqin ki, onu da hərrac yolu ilə istifadəyə verəcəyik".

**Dünya SAKİT,**
**"Yeni Müsavat"**




# Quru sərhədlərin nə qədər bağlı qalacağı bilinmir

## Deputat: "Yəqin, bizim bilmədiyimiz elə məqamlar var ki..."

**Azərbaycanda quru sərhədləri 2020-ci ilin martından bəri bağlıdır. Həmin vaxt hökumət bu tədbirin COVID-19 pademiyasının fəsadlarının qarşısını almaq üçün həyata keçirildiyini açıqlamışdı. Ümumdünya Səhiyyə Təşkilatı mayın 5-də COVID-19 pandemiyasının rəsmi olaraq başa çatdığını açıqladı.**

Bununla belə, Azərbaycan hökuməti iyunun 23-də pandemiya ilə əlaqəli karantin rejiminin oktyabrın 2-nə qədər uzadılması barədə qərar çıxardı. Beləcə, karantin rejiminin uzadılması quru sərhədlərin bağlı qalmasını şərtləndirmiş oldu.

Vətəndaşlar, xüsusilə tələbələr qeyd edir ki, quru sərhədlərin açılması vacibdir. Bəziləri isə sərhədlərin mərhələli şəkildə, məsələn, əvvəlcə Türkiyə və Gürcüstan üçün açılmasını təklif edirlər.

Bəs sərhədlər niyə açılmır? Mərhələli şəkildə quru sərhədləri açmaq mümkündürmü?

Məsələ ilə bağlı yenisabah.az-a açıqlama verən Milli Məclisin deputatı Razi Nurullayev də quru sərhədlərin açılmasının tərəfdarı olduğunu bildirib: "Quru sərhədlərinin açılması ilə bağlı ciddi, anlaşılmayan məsələlər var. Biz dövlət nümayəndələri kimi bunun daha çox təhlükəsizliklə bağlı olduğunu bilirik. İnsanların bəziləri bu məsələlərdə məlumatsızdır, amma təbii ki, mən istərdim ki, elə günü sabah quru sərhədləri açılsın. Çünki quru sərhədlərin açılması yüz minlərlə insanın həyatının asanlaşdırılması deməkdir, yüz minlərlə insanın xırda ticarətlə evinə çörək aparması deməkdir və yüz minlərlə insanın sərhədi keçərək Azərbaycana turizm məqsədi ilə gəlməsi deməkdir. Bu da onların burada pul xərcləməsi deməkdir ki, bu sayədə on minlərlə insan Azərbaycan daxilində işlə təmin oluna bilər. Bütün bunları nəzərə alaraq quru sərhədlərinin açılması vacibdir. Əlavə olaraq, öz maşını ilə quru sərhədlərlə xəstə aparıb-gətirənlər, tələbələrin Azərbaycana gəlməsi və təyyarə biletlərinin baha olması fonunda sərhədlərin açılması daha vacib görünür. Həmişə bunun tərəfdarı olmuşam".

Deputat sərhədlərin məhz təhlükəsizlik amilinə görə bağlı qalmasını istisna etməyib: "Elə düşünmək olmaz ki, biz sərhədlərin açılmasını istəyirik, lakin hökumət istəmir. Bu doğru yanaşma olmaz. Yəqin ki, bizim bilmədiyimiz elə məqamlar var ki, biz də onu bilsək, hökumətlə razılaşarıq. Yəqin ki, müəyyən səbəblər var, o səbəblər öncə aradan qaldırılmalıdır ki, sonra quru sərhədlər açılsın. Mən bunu ermənilərin təxribatına, Qarabağda baş verən hadisələrə, Rusiya-Ukrayna müharibəsini bağlayıram".

R.Nurullayev sərhədlərin mərhələli şəkildə açılması məsələsinə də münasibət bildirib. O, bu addımın bir sıra problemlərə yol aça biləcəyini qeyd edib: "Sərhədlərin mərhələli şəkildə açılması əlavə suallar yaradacaq. Bu, ölkələrlə münasibətlərin pozulmasına, bir sıra suallara və ayrı-seçkiliyə səbəb ola bilər. Bütün bunları nəzərə almaq lazımdır. Bəzi ölkələrlə quru sərhədi açıb, bəzisi ilə bağlı saxlamaq heç də deyildiyi kimi asan deyil. Əgər sərhədlər açılsa, mən əminəm ki, bütün ölkələr üçün birdən açılacaq".

Quru sərhədlərini bağlı qalması hava nəqliyyatı qiymətləri və səyahət xərclərini əhəmiyyətli dərəcədə artırıb.

İqtisadçı ekspert Rauf Qarayev hesablayıb ki, hazırda Azərbaycanda orta statistik xarici turistin bütün xərclərinin 40 faizini nəqliyyat xərcləri təşkil edir. Təbii ki, ölkə daxilində dincələn vətəndaşlarımızın gediş haqqı azdır - hardasa 15 faiz civarında.(ayna.az).

"Əslində, xarici səyahətçilərə gəldikdə, bu orta rəqəm yəqin ki, normaldır. Lakin quru sərhədlərinin bağlı olmasını və əcnəbi səyahətçilərin yalnız hava nəqliyyatından istifadə etməli olduqlarını və onların başqa variantlarının olmadığını nəzərə alsaq, təbii ki, bütün bunlar normadan uzaqdır", - deyə mütəxəssis bildirib.

Ekspert deyib ki, aşağı büdcəli aviaşirkətin xidmətləri göstərilmir: "Tək "Buta Airways" ucuz uçuşlar üçün kifayət etmir. Qonşu ölkədə turistlər üçün nəqliyyat xərcləri xeyli aşağıdır və getdiyimiz yerlə müqayisə oluna bilməz. Ona görə də, açığı, turistlər bizə gəlmir. Gələnlər isə yenidən gəlməyə həvəs göstərmirlər. Azərbaycanı əsasən imkanlı əcnəbilər seçir".

Bu mənada Dövlət Sərhəd Xidmətinin (DSX) 2022-ci il üçün ölkəyə gələn insanların istifadə etdiyi nəqliyyat növləri və onların respublikada olma müddəti ilə bağlı hesabatı diqqətçəkəndir. Məlum olub ki, quru sərhədlərinin bağlı olmasına baxmayaraq, səyahət edənlərin cəmi 65 faizi bizə hava yolu ilə gəlir. İkinci yerdə quru nəqliyyatı - 33 faizdir.

DSX bunu statistikaya müxtəlif yükləri müşayiət edən şəxslərin daxil olması ilə izah edir. Cəmi 2 faiz bura su nəqliyyatı ilə gəlir. Əksəriyyəti (33 faizi) burada 22 gündən çox, qalanları isə ən çox bir həftə qalır.

Qonaqların 38 faizi birbaşa istirahət üçün, eyni sayda əcnəbi iş üçün gəlir. 5 faizi ölkəmizdən tranzit kimi istifadə edir, 17 faizi qohum və dostlarının yanına gəlir.

Yeri gəlmişkən, "Azərbaycan Hava Yolları" QSC-dən verilən məlumata görə, buraya turistlərin çoxu Türkiyə, Rusiya və Birləşmiş Ərəb Əmirliklərindən gəlib.

Pandemiyadan bir neçə il əvvəl qonaqpərvərlik sənayesi prioritet hesab olunurdu və sürətlə inkişaf edirdi. Rəsmilər sənayenin nailiyyətlərini rəngarəng təsvir edir, Azərbaycan mediası rekord tərəqqidən həvəslə yazırdı. Məsələn, pandemiyadan əvvəlki 2019-cu ildə ən çox xarici qonaq axını qeydə alınıb - 3,2 milyon nəfər.

❑ **"Yeni Müsavat"**

# Rusiya vətəndaşlarını izləmək üçün nə qədər xərcləyir?



**2022-ci ildə Ukraynaya total savaş açandan bəri Rusiyada vətəndaşların izlənməsi texnologiyalarına çəkilən rəsmi xərclər xeyli artıb. Novator.az-ın məlumatına görə, dövlət satınalmalarına aid minlərlə sənədi təhlil edən ingilisdilli "The Moscow Times" qəzeti yazır ki, 2022-ci ildə və 2023-cü ilin birinci yarısında Rusiyada yüz minlərlə müşahidə kamerasından videoların dövlət məlumat mərkəzlərinə (videoları qəbul və mühafizə edən bazalara) ötürülməsinə çəkilən xərc 30,7 milyard rubl təşkil edib. 2021-ci ildə həmin xərc 10,5 milyard, 2020-ci ildə isə 15 milyard rubl olub. Beləliklə, il yarımda videoların müşahidə kameralarından dövlət məlumat bazalarına ötürülməsinə çəkilən xərc əvvəlki iki ilin birgə məsrəfindən artıqdır.**

2022-2023-cü illərin xərci bütövlükdə 2011-ci ildən bu işə (videoların kameralardan dövlət məlumat mərkəzlərinə ötürülməsinə) sərf olunan cəmi vəsaitin az qala üçdə biri həcmindədir.

Dövlətin üztanıma sistemlərinə yönəltdiyi vəsait də artıb. 2011-ci ildən dövlət büdcəsindən üztanıma sistemlərinə cəmi 3,6 milyard rubl xərcləndiyini xatırladan "The Moscow Times" qeyd edir ki, məbləğin yenə üçdə bir hissəsi (1,2 milyard rubl) Ukrayna ilə müharibə başlanandan sonra, yəni 2022-ci ilin fevralından ayrılıb.

Qəzetin yazdığına görə, ölkənin başqa şəhərləri ilə müqayisədə paytaxt Moskvada üztanıma sisteminə qoşulmuş müşahidə kameraları daha sıx-sıx quraşdırılıb. Ölkə üzrə bu sayaq videokameraların 500 mindən çox olduğu, onların 200 mindən çoxunun Moskvanın payına düşdüyü bildirilir. Paytaxtda açılmış cinayətlərlə bağlı göstəricinin ümumilikdə ölkə üzrə göstəricidən 30 faiz geri qaldığını qeyd edən qəzet yazır ki, bu fakt bir daha izləmə texnologiyalarında əsas hədəfin hakim rejimə müxalif vətəndaşları güdmək olduğunu təsdiqləyir.

# Əhali artımı statistikası

**Dövlət Statistika Komitəsinin hesabatına görə, 2023-cü ilin ilk yarısında Azərbaycanda hər 1000 nəfərə 4,7 nəfər təbii artım qeydə alınıb.**

Təbii artım göstəricisi doğulanlarla ölənlərin nisbətinə əsaslanır. Yarım ildə ölkədə 53918 nəfər doğulub, 30165 nəfər dünyasını dəyişib, 2022-ci ilin yanvar-iyun aylarına nəzərən təbii artım 17,5 faiz azalıb.

Novator.az bildirir ki, Qobustanda 1000 nəfərə 13, Yardımlıda 11,6, Xocalıda 10,6, Xocavənddə 10,3, Cəlilabadda 9,9, Lerikdə 9,3, Biləsuvarda 9,7, Laçında 9,1, Kəlbəcərdə 8,9, Sabirabad və Şamaxıda 8,4, Bakının Qaradağ rayonunda 8 nəfər təbii artım rəsmiləşib.

Hər 1000 nəfərə təbii artımın 4,7-dən yüksək olduğu başqa bölgələr bunlardır: Astara - 7,6, Qəbələ - 7,2, Ağdam - 7,1, Hacıqabul, Saatlı - 6,7, Şabran - 6,6, Ağcabədi, Ağsu, Beyləqan - 6,5, Qubadlı - 6,3, Babək, Quba, Şuşa - 6, İmişli - 5,8, Masallı, Salyan, Yevlax - 5,7, Cəbrayıl - 5,6, Ağdaş, Füzuli, Kəngərli - 5,5, Göygöl - 5,4, Culfa, Goranboy, Tərtər - 5,3, Kürdəmir - 5,2, Bərdə, Qusar - 5,1, Xaçmaz, İsmayıllı - 5, Samux, Şərur - 4,9.




# "Avroviziya 2024"ə razılıq verdik - müsabiqədən çəkilək, yoxsa...

## Faiq Sücəddinov: "Dünyaca nüfuzlu səhnədə "Azərbaycan" sözünün səslənməsi 10 milyona dəyər..."

**Avqustun 17-dək 27 ölkə "Avroviziya 2024" mahnı yarışında iştirakını təsdiqləyib: Almaniya, Avstriya, Azərbaycan, Belçika, Danimarka, Estoniya, Finlandiya, Fransa, İrlandiya, İslandiya, İspaniya, İsrail, İsveç, İsveçrə, İtaliya, Kipr, Litva, Lüksemburq, Malta, Moldova, Niderland, Norveç, Polşa, Portuqaliya, San Marino, Serbiya, Ukrayna.**

Novator.az bildirir ki, İsveçin Malmö şəhərinin ev sahibi olacağı yarışın ilk yarımfinalı mayın 7-nə, ikinci yarımfinalı mayın 9-na, finalı mayın 11-nə təyin edilib.

İctimai teleradioları cəmləyən Avropa Yayım Birliyinin 1956-cı ildən keçirdiyi "Avroviziya" yarışında İrlandiya və İsveç 7, Niderland, Fransa, Lüksemburq və Böyük Britaniya 5, İsrail 4, Danimarka, İtaliya, Norveç və Ukrayna 3, İsveçrə, Avstriya, İspaniya və Almaniya 2, Monako, Belçika, Yuqoslaviya, Estoniya, Latviya, Türkiyə, Yunanıstan, Finlandiya, Serbiya, Rusiya, Azərbaycan və Portuqaliya 1 dəfə qalib olub.

Məlum olduğu kimi "Avroviziya" mahnı müsabiqəsi dünyanın ən böyük musiqi tədbirlərindən biri sayılır. Lakin bu müsabiqənin sadəcə mahnı müsabiqəsi olmadığı haqda çoxdan fikirlər səslənir. Qeyd olunur ki, "Avroviziya" siyasi münasibətlərin yumşaq ifadə platforması olmaqla bərabər, həm də Avropanın mənəvi ekspansiya siyasətini icra edən bir mexanizmidir.

Bu yarışmadan siyasi təbliğat vasitəsi kimi istifadə edilməsi ilə bağlı ən məşhur nümunələrdən biri Gürcüstanın 2009-cu ildə Rusiya prezidenti Vladimir Putini məsxərəyə qoyan "We don't wanna put in" adlı mahnı ilə təmsil olunmağa qərar verməsi idi. Lakin "Avroviziya" mahnının sözlərində açıq siyasi mesajlar olduğunu əsas gətirərək, sözlərin dəyişdirilməsini tələb etdi. Tələb Gürcüstan tərəfindən qəbul edilmədi və ölkə həmin il müsabiqədə iştirakdan imtina etdi.

Siyasi proseslərin təsiri 2017-ci ildə İsveçdə keçirilən müsabiqədə daha aydın nəzərə çarpdı. Ukrayna təmsilçisi Camala Krım türklərinin deportasiyası haqqında yazılan "1944" adlı parça ilə yarışmaya qatıldı. Qeyd edək ki, Rusiyanın Krımı ilhaq etdiyi dövrdə yazılan, Rusiyanın sələfi hesab olunan SSRİ-nin Krım tatarlarını zorla köçürmə siyasətini tənqid edən mahnının siyasi motivlərinə bu dəfə Avropa göz yumdu və güclü dəstək əldə edən çıxış qalib olmağı bacardı.

Mütəxəssislər də qeyd edir ki, "Avroviziya"da siyasi faktorlar səsvermə zamanı daha çox nəzərə çarpır. Belə ki, Yunanıstanın heç vaxt Türkiyəyə səs verməməsi, Balkan və Skandinaviya ölkələrinin öz aralarındakı daimi dəstəyi bir növ buna sübutdur. Verilən səslər, sanki ölkələrin bir-birinə olan münasibətinin göstəricisinə çevrilib. Bu nöqteyi-nəzərdən qeyd edək ki, Azərbaycanın ən çox səs alıb-verdiyi ölkələr Türkiyə, Rusiya, Moldova, İsrail, Ukrayna və Gürcüstandır.

Son illər isə yarışmada LGBT təbliğatı açıq-aydın hiss olunmaqdır. Məsələn, 2014-cü ildə keçirilən müsabiqənin qalibi olan Avstriya təmsilçisi Konçita Vorst LGBT təbliğatının simvoluna çevrildi. "Saqqallı qadın" olaraq yaddaşlarda qalan ifaçının qalibiyyəti cinsi azlıqların nümayəndələri tərəfindən rəğbətlə qarşılandı və ifaçı "ikon" kimi qəbul olundu. "Simurq quşu kimi yüksəlmək" adlı parçası LGBT hərəkatlarının yüksəlməsi üçün təməl oldu.

Onu da əlavə edək ki, qardaş Türkiyə ilk dəfə bu yarışmaya 1975-ci ildə qoşulub, 34 dəfə müsabiqədə iştirak edib. Lakin səsvermə sistemində dəyişiklikləri əsas gətirərək, Türkiyə 2013-cü ildən etiraz əlaməti olaraq bu yarışmada iştirak etmir.

Azərbaycana gəldikdə, ölkəmiz ilk dəfə 2008-ci ildə bu yarışmaya qoşulub.

Serbiyanın paytaxtı Belqrad şəhərində baş tutan 53-cü "Avroviziya" müsabiqəsində Azərbaycanı Elnur Hüseynov və Samir Cavadzadə "Day After Day" mahnısı ilə təmsil etdi və 132 xalla 8-ci yeri tutdu. 2011-ci ildə isə Azərbaycan



tarixi ərzində birinci dəfə müsabiqənin qalibi oldu. Almaniyanın Düsseldorf şəhərinin ev sahibliyi etdiyi müsabiqədə Eldar Qasımov və Nigar Camal "Running Scared" mahnısı ilə Avropanın bütün dövlətlərini arxada qoydu və yarışmanı "Odlar Yurdu"na gətirdi. Ertəsi il müsabiqəyə paytaxtın Kristal Zalı ev sahibliyi etdi. İsveçli ifaçı Lorinin qələbə qazandığı yarışmada Azərbaycan təmsilçisi Səbinə Babayeva "When the Music Dies"mahnısı ilə 4-cü yeri tutdu.

Azərbaycan sonuncu dəfə müsabiqədə 2013-cü ildə uğurla çıxış etdi. Malmö şəhərində baş tutan müsabiqədə Fərid Məmmədov "Hold Me" mahnısı ilə ikinci yeri tutdu. 2014-cü ildən isə Azərbaycan yarışmalarda mütamadi olaraq uğursuz çıxış edir. 2014-cü ildə Dilarə Kazımova 22-ci, 2015-ci ildə Elnur Hüseynov 12-ci, 2016 -cı ildə isə Səmra Rəhimli 17-ci yeri tutdu.

2017 Kiyev şəhərində keçirilən müsabiqədə Azərbaycanı Diana Hacıyeva "Neaeaoiin" mahnısı ilə təmsil etmiş və nəticədə 14-cü yeri qazanmışdır. İlk dəfə 2018-ci ildə Azərbaycan Aysel Məmmədovanın təmsilində yarımfinal mərhələsində məğlub olmuşdur. 2019-cu ildə isə Çingiz Mustafayev ifa etdiyi "Truth" mahnısı ilə 8-ci yerdə qərarlaşmışdır. 2021-ci ildə Niderlandda keçirilən yarışmada iştirakçımız Samirə Əfəndiyeva 20-ci, 2022-ci ildə İtaliyada iştirakçımız Nadir Rüstəmli 16-cı yerə çıxıb. Ötən il, yəni 2023-cü ildə isə ölkəmizi təmsil edən Tural Bağmanov və Turan Bağmanov qardaşları ümumiyyətlə finala keçə bilmədilər. Hələ yarışmada iştirak etməzdən əvvəl qardaşların həm mahnı, həm də performansının çox zəif olması haqda çox sayda tənqidi fikirlər səslənirdi.

Bütün bu faktları nəzərə alaraq, "Avroviziya 2024" müsabiqəsindən çəkilək, yoxsa...

Mövzu ilə bağlı Xalq artisti, "Şöhrət" ordenli bəstəkar, "Avroviziya" milli seçim turunun münsiflər heyətinin üzvü olmuş Faiq Sücəddinov "Yeni Müsavat"a danışıb:"Avroviziya" dünyada çox nüfuzlu mahnı müsabiqəsidir və burda bütün dünya iştirak edir. Doğrudur, qardaş Türkiyə bu müsabiqədən imtina edib, onların öz baxışları var. Hesab edirəm ki, Azərbaycan "Avroviziya"da davamlı olaraq iştirak etməlidir. Ona görə ki, bu vacib səhnədir. Ola bilər ki, Azərbaycan tərəfindən bir dəfə yaxşı, bir dəfə də pis musiqi təqdim olunsun, iştirakçılarımız bir dəfə uğurlu, bir dəfə uğursuz çıxış etsin, amma əsas odur ki, ölkəmiz kənarda qalmır. İndiki informasiya müharibəsi zamanında Azərbaycan bu cür tədbirlərdən geri qalmamalıdır. Bir "Azərbaycan" sözünün səslənməsi 10 milyona dəyər. Azərbaycan bu yarışmada bir dəfə qalib olub, bir dəfə isə heç finala da keçə bilməyib. Amma bütün bunlara baxmayaraq, kəskin mövqe nümayiş etdirməməliyik. Niyə bu cür tədbirdən imtina etməliyik? Yaxşı, gizlənək, qapanaq, bəs sonra nə olsun?

"Bəs niyə bəstəkarlarımız "Avroviziya" müsabiqəsi üçün mahnı yazmır, müraciət olunmur, yoxsa?" sualımıza Faiq Sücəddinov bu cür cavab verdi: "Bu məsələdə bir qədər açıq olmaq lazımdır. Hesab edirəm ki, gələcəkdə bu da olacaq. Allah biz bəstəkarlara ömür versin, tələb olunanda onu da yazacağıq. Bir neçə il öncə Fransada Azərbaycan mədəniyyət günləri keçirilirdi. Həmin tədbirdə səslənən musiqilərimizin təsirindən xaricilərin ağızları açıq qalmışdı. Muğamımız, folklorumuz, caz, akademik musiqimiz çox zəngindir. Əlbəttə ki, dünya arenasında öz musiqimizin səslənməsi daha yaxşı olardı, amma qeyd etdiyim kimi, inanıram ki, gələcəkdə o da olacaq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Sükanı azyaşlı övladlarına həvalə edən valideynlərə xəbərdarlıq



**Baş Dövlət Yol Polisi İdarəsi avtomobilin sükanını azyaşlı övladlarına həvalə edən valideynlərə xəbərdarlıq edib. İdarənin məlumatında deyilir ki, "dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, yetkinlik yaşına çatmayan şəxslərin gizlin, bir sıra hallarda isə məhz valideynlərinin iştirakı ilə avtomobil idarə etməsi ciddi narahatlıq doğurur:**

"Təəssüf ki, bəzən valideynlər avtomobilin sükanını bir müddət azyaşlı övladlarına həvalə etməklə artıq onların bu məsuliyyətli işin öhdəsindən gəldiklərini zənn edir, lakin yol hərəkəti qaydalarından xəbərsiz olan, mükəmməl sürmə vərdişlərinə yiyələnməyən azyaşlıların ekstremal vəziyyətlərdə aciz qalacaqlarını, sürücülük hüququ olmadan avtomobil idarə etmək həvəsinin onların özlərinin və doğmalarının arzularını yarıda qoyacağını unudurlar.

Baş Dövlət Yol Polisi İdarəsi avtomobilin sürücülük hüququ olmadan idarə edilməsi, habelə nəqliyyat vasitəsini onu idarəetmə hüququ olmayan şəxsə verilməsi kimi kobud qayda pozuntularının ağır faciələrə, maddi və mənəvi zərərlərə səbəb olmadan vaxtında aşkarlanması üçün xüsusi texniki vasitələrdən də istifadə etməklə konkret addımların atıldığını bildirir, bu sahədə aparılan nəzarət-profilaktik tədbirlərin daha da gücləndirildiyini, belə neqativ əməllərə meyilli şəxslərə qarşı qanunvericiliyə uyğun kəsərli tədbirlərin görüləcəyini avtomobil sahiblərinin və sürücülərin diqqətinə çatdırır, eyni zamanda vətəndaş cəmiyyəti institutlarını bu işdə birgə əməkdaşlığa dəvət edir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Boşanmalardan daha çox uşaqlar əziyyət çəkir

## Ekspert: "Rəsmi nikahsız yaşayıb, boşananların və ortalıqda qalan uşaqların sayı da çoxdur"

**Bir neçə gün öncə Dövlət Statistika Komitəsinin açıqladığı hesabata görə, 2023-cü ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 24 146 nikah və 10 631 boşanma halları qeydə alınıb.**

Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1 000 nəfərinə nikahların sayı azalaraq 5,8-dən 4,8-ə düşmüş, boşanmaların sayı isə 1,5-dən 2,1-ə qədər artıb. Ekspertlərə görə, bu statistika artıq həyəcan təbili çalmaq üçün zəmin yaradıb.

Təbii ki, boşanma səbəbləri müxtəlif olur. Mütəxəssislər boşanmaların artmasını əsasən ailə quran gənclərin xarakterlərinin uyğun gəlməməsi, psixoloji, iqtisadi və s. kimi səbəblərlə izah edirlər.

Amma təbii ki, bu məsələdə ən çox əziyyət çəkən demək olar ki, uşaqlar olur. Aparılan araşdırmalara görə uşaqların boşanma öncəsindən başlayaraq, boşanma müddəti və sonrasında bir çox mənfi vəziyyətlə üz-üzə qala bildikləri ortaya çıxmışdır. Uşaqlarda ana-ata ayrılığının yaratdığı stress, ümumilikdə ayrılığın sonrakı ilk günlərində deyil, daha sonrakı vaxtlarda da, ortaya çıxar hətta bu travma illər sonra da davam edə bilər.

Boşanmış ailələrdə uşaqlar daha çox bu travmalarla üz-üzə qalır:

- Ana-ata arasında xəbər daşımaq məcburiyyətində qalmaq;
- Valideynlərinin bir-birlərini günahlandırmasını eşitmək məcburiyyətində qalmaq;
- Ana və ya atanın həddindən artıq qəmginliyinə, əsəbiliyinə, emosional çökməsinə şahid olmaq;
- Valideynlərindən biri ilə görüşməmək,onun üçün darıxmaq;
- Yaşananlar üçün özünü günahlandırmaq;
- Valideynlər arasında davam edən düşmənçilik (bu təməl stress faktorlarındandır);

Boşanmadan öncəki və sonrakı qalmaqalların uşaqlara necə mənfi təsir göstərdiyini belə bir statistikada görə bilərik: 37,7 % uşaqda irəliləyiş azalır; 19,6 % evdə intizam azalır; 17,4 % xüsusi diqqəti tələb edirlər; 8,7 % evdən qaçırlar; 6,5 % dostlarla münaqişələr yaranır.

Həmçinin tədqiqatlar onu göstərir ki, natamam ailələrdən olan uşaqlar sonralar əks cinslərlə münasibətlərin qurulmasında çətinliklər yaşayırlar. Bu, onlarda hər hansısa bir münasibətə girərkən özünəinamın aşağı olması, evlilik qorxusunun olması ilə göstərir.

Uşaq psixoloqları bir daha qeyd edirlər ki, günahkarlıq hissi boşanmış ailələrin uşaqlarında daha çox olur. Və hətta bəzi məlumatlara görə nikahın pozulması oğlan uşaqlarına daha çox mənfi təsir göstərir.



Uşaqlarda valideynlərin boşanması ilə əlaqədar stressin verdiyi nəticələr bunlardır:

- Gündəlik həyata uyğunlaşmasının pozulması;
- Sevgi və sədaqət haqqında təsəvvürlərin dəyişilməsi.

Bu, yaşından asılı olaraq valideynlərin boşanması özünü müxtəlif şəkildə göstərə bilər.

Psixoloqların və həkimlərin birgə apardıqları tədqiqatlara görə, bəzi hallarda boşanma südəmər uşağın həlak olmasına da apara bilər, çünki uşaq anası ilə simbiozda (bağlılıqda) olur. Həlak olmasının səbəbi ondadır ki, ana stressdə olur və uşağa olduğu dərəcədə qayğı göstərə bilmir, məsələn, südverən analarda stresslə bağlı olaraq süd çox miqdarda azalır.

Bütövlükdə, kiçik uşaqlar öz narahatlıqları barədə böyüklərə yalnız bir üsulla xəbər verə bilərlər - xəstələnmək. Ekzemalar, qastritlər, pəltəkləmə, zəhlə tökən hərəkətlər - uşaqların daxili gərginliyinin ən tipik təzahürləridir.

Bu dövrdə boşanmaya aid reaksiyalar: imtina (qidadan, oyunlardan, bağçaya və ya küçəyə yürüş), özünü qiymətləndirmənin aşağı olması, diqqət çatışmamazlığı.

Uşaqlar üçün - boşanma bir qəzadır, təhlükəsizliyin və sevginin itməsidir. Kiçik yaşda olan uşaqlardan daha çox yeniyetmələri valideynlərin boşanması kəskin narahat edir. Təxminən valideynlərin boşanmasından bir il sonra bütün problemlər hamarlanır və uşağın emosional vəziyyəti bərpa olunmağa başlayır. Bu yalnız bir şərtlə mümkündür ki, əgər uşaq valideynlərin sevgisini, öz əhəmiyyətini, təhlükəsizliyi hiss edirsə və o tək deyil.

Mövzu ilə bağlı Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə "Yeni Müsavat"a danışıb. Uşaq hüquqlarının müdafiəçisi qeyd edib ki, bir neçə gün öncə sığınacağa 5 uşaq qəbul ediblər: "Bir ana deyirdi ki, "uşaqlarıma baxa bilmirəm", digər 2 uşağın anası başqa kişidən hamilə idi, uşaqlara atası baxırdı, atası da deyirdi ki, "mən baxa bilmirəm, dövlət baxsın". Dövlət Statistika Komitəsi hələ rəsmi nikahların pozulmasını qeyd edir, amma rəsmi nikahsız yaşayıb, boşananların və ortalıqda qalan uşaqların sayı da çoxdur. Bütün bunları bir araya gətirəndə çox faciəvi bir səhnə yaranır.

Bəli, bu məsələdən ən çox təsirlənən, travma alan uşaqlardır. Çünki uşaqlar ortalıqda qalır. Bir məsuliyyətsizlik çox ciddi davranış pozuntusu ilə böyüyən uşaqlar formalaşdırır. Son illərdə sığınacağımıza gələn uşaqların davranışlarında ciddi problemləri müşahidə edirik. Çünki davamlı olaraq münaqişələrin, şiddətin, zorakılığın içində olublar. Nəticədə cəmiyyət üçün aqressiv gənc nəsil yetişməkdədir və bu çox ciddi bir siqnaldır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# "İnsanlarımızın bəziləri paxıllıqdan..."

## Akif İslamzadə: "Sənət adamı xalqın dərdini deməlidir" deyənlərin çoxu avamdır"

**"İnsanlarımızın bəziləri paxıllıqdan, bəziləri isə həqiqəti anlamadıqları üçün Rasim Balayevə qarşı belə reaksiya verirlər. Rasim Balayev orada nə etməliydi?"**

Bu sözləri yenisabah.az-a açıqlamasında "Şöhrət" ordenli tanınmış müğənni Akif İslamzadə deyib.

O, Xalq artisti Rasim Balayevin Prezidentlə görüşündən sonra haqqında səslənən ittihamlara toxunub.

A.İslamzadə bildirib ki, sənət adamlarını tənqid etməkdənsə, ilk öncə, jurnalistlərin arasında sorğu aparılmalıdır: "Onda görərsiniz ki, kimlər nədən danışır, cəmiyyətin problemləri nədir, anlayarsınız. Məsələn, mənim yaşadığım yerdə həyətin ortasında uşaq bağçası tikiblər. Avropadan biri bura gəlsə, elə bilər ki, gey klubdur. Hansı jurnalist gəlib çəkib bunu?! Xəbərləri var?! Bəs jurnalistlər hara baxır?! İnanmırsınızsa, gəlin, baxın, görün, gey kluba oxşayır, ya yox?!"

Müğənni hesab edir ki, sənət adamları bu ölkənin vətəndaşları olub deyə xalqın ağrı-acısına daim şərik olub: "Bu gün Rasim Balayevə olan tənqidlər yersizdir. Sənətçiləri tənqid etməyin sovet dövrünə nə dəxili var? Sovet dövründə jurnalistikanın zərəri çox idi, ya sənətkarların? Ona görə deyirəm ki, sənətkarları tənqid etməkdənsə, ilk növbədə, jurnalistikamızdan danışsınlar".




"O ki qaldı tənqidlərə, mən də Prezidentlə görüşəcəyəm. İndi mənim nəyimi tənqid edəcəklər? Məni tənqid etmək üçün o adam, ən azı, Akif İslamzadənin, yaxud Rasim Balayevin bu millət üçün etdiyinin 5%-ni etsin. O adamlar ki, adlarını gizlədirlər və yaxud internetdə fikirlərini bildirirlər, onlar açıqlasınlar ki, biz buyuq, bu xalqa bunları vermişik, Rasim Balayevdən artığıq və s. Elə adam var bəyəm? Xeyr!", - o, əlavə edib.

Müsahibimiz düşünür ki, "sənət adamı xalqın dərdini deməlidir" deyənlərin çoxu avamlıqdan bu sözləri dilinə gətirir:

"Bu saat Rasim Balayevi tənqid edən adamların özünəməxsus nostalgiyası var. Sovet dövründə talonla yağ alan adamlar indi deyir ki, əgər mən pis yaşayıramsa, nəyə görə hamı yaxşı yaşamalıdır? Ona görə də onları dindirəndə deyirlər ki, sovet dövrü yaxşı idi. Özünün müstəmləkə altında olmağının xəbəri yoxdur, halbuki onlar qul olublar və bu gün də ona razıdırlar".

Yeri gəlmişkən, Azərbaycanda 4888 nəfər fəxri ada görə təqaüd alır.

Metbuat.az xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.

Qeyd olunub ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən ilin əvvəlinə görə, "Xalq" fəxri adına görə 263 nəfər 180 manat təqaüd alır.

"Əməkdar" fəxri adına görə isə ölkədə 4625 nəfər 120 manat təqaüd alır.

Müqayisə üçün qeyd edək ki, ötən il 4843 nəfər (265 nəfər "Xalq", 4578 nəfər "Əməkdar") fəxri adlara görə təqaüd kəsilib. Müvafiq olaraq təqaüdlər 150 və 100 manat olub.

YENİ MÜSAVAT
Son səhifə
N 145 (8281) 19 avqust 2023

## Bunları bilirsinizmi?

Avqust

* Bazar ertəsi günləri 25% bel travması və 33% ürək tutması halları daha çox baş verir.
* Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.
* Orta hesabla insan həyatının iki həftəsini işıqforun rəngini dəyişməsini gözləməyə sərf edir.
* İnsan çay içməyə daha tez vərdiş edir, nəinki narkotikə.
* Tualet kağızı 1857-ci ildə icad edilib.
* Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.
* Xokkey şaybasının atılma sürəti saatda 160 km. çata bilər.
* Orta statistik hesabla bankomat il ərzində 250 dollar səhv hesablayır - müştərilərinin xeyrinə.
* İl ərzində insan qabırğası 5 milyon dəfə hərəkət edir.
* Dəvədəlləyi yeganə həşəratdır ki, başını çevirə bilir.
* Dünyada baş verən 7 oğurluqdan yalnız birinin üstü açılır.
* Dünyanın heç bir dilində dizin arxa hissəsinin adını verən bir söz yoxdur.
* ABŞ əhalisinin yalnız 55%-i Günəşin ulduz olduğunu bilir.
* Son 4 min il ərzində insan hər hansı bir yeni heyvan növünü əhliləşdirməyib.
* Dünyada hər 2 dəqiqədən bir zəlzələ baş verir.
* Normal insanın yuxuya getməsi üçün orta hesabla 7 dəqiqə vaxt tələb olunur.

# Yaşlı ər-arvad eyni gündə öldü



**Sumqayıtda evdən ər və arvadın meyitinin tapılması barədə bəzi məlumatlar bilinib. 2-ci mikrorayonda yaşadıqları mənzillərində 84 yaşlı Aleksandr Alekseyeviç Mamontov və onun həyat yoldaşı, 82 yaşlı Lyubov Georgiyevna Mamontovanın aşkarlanan meyitlərinin üzərində zorakılıq əlamətləri görülməyib. Belə ki, kişi uzun müddət yataq xəstəsi imiş və ötən gün vəfat edib. Onun arvadı rəfiqəsinə zəng edərək, ərinin ölüm xəbərini verib.**

Daha sonra rəfiqəsi onların yaşadığı evə gəlib və qadının da öldüyünü aşkarlayıb. İlkin məlumata görə, 82 yaşlı Lyubov Georgiyevna ürəktutmadan vəfat edib. Onların iki övladı var və Rusiyada yaşayırlar. Hazırda faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda araşdırma aparılır.



## Uçuş-enmə zolağı su altında qaldı

**Almaniyanın Frankfurt-Mayn şəhəri güclü yağışlardan sonra gölə çevrilib və hər yerdə daşqınlar müşahidə olunur. Kəskin yağışlardan sonra Almaniyanın beynəlxalq qovşağı və ən böyük hava limanı iflic olub. Uçuş-enmə zolağı su altında qalıb. Laynerlər nəinki eniş edə bilməyib, hətta sərnişinlərin göyərtədən çıxmaq imkanı belə olmayıb.**

Yeraltı keçidlər və dayanacaqlar, ticarət mərkəzləri, metro stansiyaları su altında qalıb. Nə hasarlar, nə də qapılar su axınının qarşısını ala bilməyib. Eskalatorlardan - “şəlalələr” və “gur çaylar” axmağa başlayıb. Küçələr fəvvarələrə çevrilib. Su avtomobillərin az qala pəncərələrinə qədər yüksəlib, həmçinin piyadalar üçün də çətinliklər yaranıb.

## Səhər acqarına qəhvə içmək arıqlatmır

**Qəhvənin faydaları barədə dəfələrlə deyilib və yazılıb. Lakin onu düzgün istifadə etmədikdə əks effekt verir.**

Bu barədə elm adamları xəbərdarlıq ediblər. Belə ki, bir çoxları səhərlər ayılmaq, yaxud səbəbsiz yerə acqarına qəhvə içməyi vərdiş ediblər. Elələri də var ki, bunu arıqlamaq məqsədiylə edir. Həkimlər acqarına qəhvə içməyin orqanizmdə ödem əmələ gətirdiyini bildiriblər. Onların sözlərinə görə, bu da öz növbəsində bir sıra xəstəliklərlə nəticələnir, həmçinin artıq çəkidən qurtulmağa deyil, kökəlməyə səbəb olur.

Buna görə tibb işçiləri səhərlər qəhvə içməzdən əvvəl ən azı bir meyvə yeməyin daha sağlam üsul olduğunu deyiblər.

# Dünyanın ən kök adamı 330 kiloqram arıqlayıb



**Dünyanın ən kök adamı 330 kiloqram arıqlayıb. Məlumata görə, 2016-cı ildə Xuan Pedro Frankonun çəkisi 595 kq olub. O, dünyanın ən kök adamı kimi “Ginnesin Rekordlar Kitabı”na daxil edilib. Qətiyyən hərəkət edə bilməyən Xuan arıqlamaq qərarı verir. 330 kq çəki itirəndən sonra ayağa qalxmağa, özü addımlamağa başlayıb. Qeyd edək ki, dünyanın ən kök adamı çəkisini mədə əməliyyatı və müxtəlif diyetlər, xüsusi məşqlər vasitəsilə ata bilib.**

## Alimlər elektron siqaretlərin yeni təhlükələrini müəyyən ediblər

**Amerikalı alimlər aşkar ediblər ki, siqaret çəkən gənclərdə bronxit və təngnəfəslik riski artır. Tədqiqatda 2014-2018-ci illər arasında orta yaşı 17 olan 2000-dən çox tələbənin məlumatları araşdırılıb. İştirakçılardan tütün istifadəsi və tənəffüs simptomları haqqında dörd dalğada müsahibə alınıb. Hər dalğada ən çox qeydə alınan simptom bronxitin təzahürləri olub. Tədqiqat iştirakçılarında ardıcıl üç ay ərzində gündəlik öskürək, eləcə də soyuqdəymə ilə müşayiət olunmayan maye yığılması qeydə alınıb.**

Son 30 gündə elektron siqaret çəkənlər arasında xırıltı yaranma ehtimalı heç vaxt çəkməyənlərə nisbətən 81% daha yüksək olub. Bronxit əlamətlərinin yaşanma riskinin iki dəfə, nəfəs darlığı riskinin isə 78% yüksək olduğu aşkarlanıb.

## Uşaqların suda boğulmasının qarşısını alan geyim hazırlanıb



**Fransalı ixtiraçılar uşaqları boğulma riskindən qoruyan geyim təqdim ediblər. Bildirilir ki, bu ixtira təsadüfən hovuza düşən uşaqlar üçün əlavə təhlükəsizlik təmin edir. Belə ki, qısaqol köynək şəklində olan geyim su ilə təmasa dərhal reaksiya verir və içərisindəki hava ilə dolu boşluqlar sayəsində xilasedici jiletə çevrilir. Hazırda geyimin yalnız uşaq ölçülərində modelləri satışa çıxarılıb. Qeyd edək ki, ixtira “Lepine 2023" müsabiqəsində qızıl medala layiq görülüb.**

## İlk dəfə balıq tutmağa getdi və dünya rekordunu qırdı

**İlk dəfə balıq tutmağa gedən amerikalı 85,5 kiloqramlıq nəhəng opa tutub və bununla da dünya rekordunu qırıb. Bildirilir ki, Kaliforniyadan olan Bo Liman dostları ilə okeana balıq tutmağa gedib. Axşama yaxın onların gəmisinin kapitanı sonarın təxminən doqquz metr dərinlikdə balıq sürüsünü göstərdiyini deyib. Liman da “isinmək üçün” tilovu 90 metrə atmağa qərar verib. O, tilovu çəkmək istəyəndə nəyə isə ilişdiyini görüb və bunun daş olduğunu düşünüb. Ancaq sonra yanıldığını anlayıb. Çünki, tilovu okeanın dibinə çatacaq qədər uzun deyildi. Liman bunu təcrübəsi çox olan dostlarına deyəndə onlar qarmağa hansısa böyük canlının düşdüyünü bildiriblər. Liman dərhal tilovu çəkməyə başlayıb. Ancaq balıq özünü azad etməyə çalışdığı üçün o yan-bu yana çabalayıb və Limana çətin anlar yaşadıb. Sonda gəmi kapitanı köməyə gəlib.**

Çıxarıldıqdan sonra bunun 85,5 kiloqramlıq nəhəng qırmızı opa olduğu müəyyən edilib. Balığın çəkisi 2014-cü ildə müəyyən edilmiş dünya rekordundan təxminən dörd kiloqram çox olub.

## Almanlar sərxoş yenotların əlində aciz qalıblar

**Almaniyada sərxoş yenotlar binalara soxularaq mənzilləri dağıdır, mebellərə zərər vurur və ev heyvanlarını yeyirlər. Sakinlər onların öhdəsindən gələ bilmirlər və çarəsiz vəziyyətdə qalıblar. Məlumata görə, bu heyvanların əsas qurbanları dovşanlar, hamsterlər və akvarium balıqlarıdır. Yenotların sərxoşluğuna səbəb kimi küçələrdə addımbaşı rast gəlinən yarımçıq pivə bankaları göstərilir. Almaniyada pivə də, yenot da çoxdur, ona görə də problem hələ də həll olunmayıb. Bu heyvanlar ovçuların köməyi ilə məhv edilməyə çalışılsa da, sərxoş yenotların doğum nisbətinin artması bu səyi nəticəsiz qoyub.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Sifariş: 2102
Lisenziya N: B 114
SAYI: 1.500